www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 avqust 2016-cı il Cümə № 170 (6491) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda şok olay: ana 15 yaşlı qızını öldürdü

yazısı səh.12-də

**Gündəm**

### Ermənistan hakimiyyətində "yarpaq tökümü" başladı



"İstefa verən rəsmilər gələcək talelərindən qorxduqları üçün Sərkisyanla eyni hakimiyyəti paylaşmaq istəmirlər..."

yazısı səh.11-də

### YAP rəsmisinin "növbədənkənar seçki olmayacaq" açıqlamasına müxalifətdən reaksiya gəldi

yazısı səh.9-da

### Minlərlə vətəndaşı aldadıb milyonlar qazanan vəzifəli şəxslər hakim qarşısına çıxarılır

yazısı səh.10-da

### Erməni politoloqlar Ermənistanın düşdüyü miskin vəziyyətə görə Rusiyanı, Sərkisyanı və cəmiyyəti ittiham edirlər

yazısı səh.9-da

### Ən yaxşı məktəb" və "Ən yaxşı müəllim" mükafatları niyə ləğv edildi?

yazısı səh.4-də

### AĞ Partiya piket keçirməyə hazırlaşır

yazısı səh.6-da

### Kredit problemi olanların güman yeri - "Antikollektor"...

yazısı səh.4-də

### Ermənistandakı rus əsgərləri ölüm qorxusu altında - hərbçilər niyə bazadan fərar edir?

yazısı səh.3-də

### Ankaradan Vaşinqtona Gülənlə bağlı 85 qutu sənəd göndərildi

yazısı səh.2-də

### Turistləri heyran qoyan paytaxtımızın yerli sakinləri niyə xoşbəxt deyil?

yazısı səh.13-də

### Ölüm saçan həşərat: qara qurd nədir və ondan necə qorunmalı?

yazısı səh.12-də

## Düşmən ölkə başçısını Moskvada gözləyən üç "muncuq"

# SƏRKİSYAN KREMLƏ TƏCİLİ NİYƏ ÇAĞIRILIB - ÜÇ SƏBƏB, BİRİ QARABAĞ...

Putinin Bakı, Ərdoğanın isə Peterburq səfərindən dərhal sonra Ermənistan prezidenti ilə Moskvaya təyin edilən görüşün pərdəarxası; **Rusiya prezidentinin müşaviri:** "Qarabağ danışıqlarında elə bu il sıçrayış olacaq..."



yazısı səh.8-də

## Azərbaycanlı politoloq Prezident Sarayına dəvət olundu, Ərdoğanın baş müşaviri ilə görüşdü

Toğrul İsmayıldan Türkiyədəki son durum və gedən proseslərlə bağlı önəmli açıqlamalar, proqnozlar; "Əgər bunlar hakimiyyəti ələ keçirsəydilər, ölkənin bölünməsi qaçılmaz olacaqdı..."

yazısı səh.7-də



*Rauf Arifoğlu:*

**""Oğrular" niyə çörəyin qədrini siyasilərdən daha yaxşı bilirlər..."**

yazısı səh.5-də



**Cahangir Hacıyev İsrail şirkətinin Beynəlxalq Bankda gizlətdiyi depoziti "əridib"**

yazısı səh.10-da



*Hafiz Hacıyev:*

**"Vitse-prezident olmaq istəyirəm"**

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 170 (6491) 5 avqust 2016

# Referenduma görə məktəb direktorları məzuniyyətə çıxmır

## "Hər gün saat 9-dan 4-dək burada oluruq"



**Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçiriləcək. Referendumun sentyabrın 26-da keçirilməsi nəzərdə tutulub. Konstitusiyada ediləcək bəzi dəyişikliklərə görə prezidentlik müddəti 5 ildən 7 ilədək artırılacaq, prezident və deputatlar üçün yaş məhdudiyyəti aradan qaldırılacaq,**

Vitse-prezidentlik institutu yaradılacaq, baş naziri vitse-prezidentlər əvəz edəcək, prezident Milli Məclisi buraxmaq hüququna malik olacaq və sairə. Referendumla bağlı hazırlıqlara artıq başlanılıb. Hətta məktəb direktorlarının faktiki məzuniyyət vaxtı olsa da, referendumla əlaqədar iş başında olduqları bildirilirdi.

Deyilənlərin nə dərəcədə doğru olduğunu öyrənmək üçün bir neçə məktəbə baş çəkdik.

İlk olaraq Nərimanov rayonunda yerləşən 177 nömrəli tam orta məktəbdə olduq. Məktəbin qapıları açıq idi. Bir çox müəllimlər və direktor iş başında idilər. İki aydır ki, direktor əvəzi olan Afilə Cəfərova referendumla əlaqədar olaraq məzuniyyətə çıxmadığını, iş başında olduğunu dedi: "Bizdə referendumda iştirak edəsi müəllimlər var. Onlar artıq öz fəaliyyətlərinə başlayıblar. Məzuniyyətdə olsalar da, öz işlərinə ciddi yanaşırlar. Mən bu məktəbə direktor əvəzi təyin olunmuşam. Direktorumuzu 2 ay əvvəl yaş həddinə görə işdən azad ediblər. İki aydır ki, onu mən əvəz edirəm. Ancaq daimi əmrim yoxdur. Məzuniyyətdə deyiləm. İndi referendumla əlaqədar hər gün işdə oluram ki, birdən problem yaranar, kiməsə məlumat lazım ola bilər. Bizim bəzi sakinlərin referendumla bağlı məlumatı olmur. Konstitusiyada ediləcək dəyişikliklər nə olacaq deyə soruşurlar, onların izahını veririk. Referendum dövlətin işidir, biz də buna ciddi yanaşırıq. Məktəbdə onların otağı var, orada müəyyən işlər aparılacaq. Biz hər gün saat 9-dan 4-ə qədər burada oluruq".

304 nömrəli tam orta məktəbin isə qapıları açıq olsa da direktor hələ ki gəlməmişdi. Direktor köməkçisi müdirin hələ işə gəlmədiyini, amma hər gün burada olduğunu dedi. Öyrəndik ki, direktor məzuniyyətdə olsa da, hər gün işə gəlir.

Baş çəkdiyimiz digər məktəblərdə də direktorlarla yanaşı, bir sıra müəllimlərin də iş başında olduqlarını müşahidə etdik. Seçki ilə əlaqədar bir sıra müəllimlər də hər gün səhər saat 9-10 radələrindən 16:00 radələrinədək işdə olurlar.

❑ **Günel MANAFLI**
**Foto müəllifindir**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**

# Nazir hərbi attaşe və hərbi nümayəndələrlə görüşüb



**Avqustun 4-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Silahlı Qüvvələrinin xarici ölkələrdə və beynəlxalq təşkilatlarda akkreditə olunmuş hərbi attaşe və hərbi nümayəndələri ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazir görüş iştirakçıları qarşısında geniş məruzə ilə çıxış edib. Z.Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində orduda bütün istiqamətlər üzrə aparılan islahatların əhəmiyyətindən danışıb.**

Cəbhə xəttindəki son vəziyyətdən danışan müdafiə naziri Silahlı Qüvvələrin təşkilat-ştat strukturunun təkmilləşdirilməsinin, ordunun müasir silah-sursat, zirehli texnika və döyüş vasitələri ilə təchiz edilməsinin, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması məqsədilə yeni poliqonların istifadəyə verilməsinin və müxtəlif qoşun növlərinin cəlb olunması ilə təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb. Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitlərinin yaxşılaşdırılması üçün yeni hərbi şəhərciklərin, xidməti və daimi mənzillərin istifadəyə verildiyini vurğulayaraq bu sahədə görüləcək işlər və digər tədbirləri hərbi attaşelərin diqqətinə çatdırıb.

Həyata keçirilən xidməti fəaliyyətlərə, o cümlədən xarici hərbi prioritetlərimizə dair geniş məruzənin sonunda general-polkovnik Z.Həsənov şəxsi heyət qarşısında duran məqsəd və tapşırıqları müəyyən edib, qarşıya konkret vəzifələr qoyub və tövsiyələrini verib.

❑ **ELŞAD**

# Mingəçevirdə adam bıçaqlayan şəxs azadlıqda gəzir?




**Mingəçevir şəhəri Nərimanov küçəsi ev 12, mənzil 13-də yaşayan Babək Allahverdiyev redaksiyamıza gələrək yaşadığı haqsızlıqlardan şikayətlənib. Şikayətçi bildirib ki, mülk üstündə ona çoxsaylı bıçaq xəsarətləri yetirən Mehman Qarayev adlı şəxs qeyri-müəyyən səbəblərdən azadlıqda gəzir, barəsində həbs-qətimkan tədbirləri seçilmir. Bu azmış kimi, M.Qarayev onu tez-tez ölümlə təhdid edir:**

"Şəki Apelyasiya Məhkəməsinin 24 fevral 2016-cı il tarixli icra sənədinə əsasən Qarayev Mehman Eldar oğluna məxsus əmlak Allahverdiyev Elman İsa oğlunun şəxsi vəsaiti hesabına Mingəçevir şəhər çimərliyi ərazisində inşa etdiyi Mingəçevir Şəhər İcra Hakmiyyəti başçısının 14 mart 1977-ci il tarixli 240 saylı sərəncamı ilə istifadəsinə verilmiş 270 m2 tikintidən çıxarılıb. Ancaq icra şöbəsi bu günə qədər məhkəmənin qərarını icra etmir. Buna səbəb şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramovun Mehman Qarayevi birbaşa müdafiə etməsidir.

Çox təəssüf ki, baş verən qanunsuzluqlar bununla bitmir. Belə ki, Şəki Apelyasiya Məhkəməsinin məlum qərarı Mingəçevir şəhər məhkəmə icraçıları tərəfindən yerinə yetirilərkən 11 may 2016-cı il tarixində M.Qarayev qeyd edilən qeyri-yaşayış sahəsinə gələrək polis əməkdaşları və icra şöbəsinin əməkdaşlarının gözləri qarşısında qardaşında olan bıçağı götürərək mənim boyun, ürək nahiyəmə 3 dəfə, əllərimə isə bir neçə dəfə bıçaqla zərbələr yetirərək məni öldürməyə cəhd edib. İlk bıçaq zərbəsindən yerə yıxılmışam. Ürək nahiyəmə bundan sonra xəsarətlər yetirilib. Yalnız polis əməkdaşlarının səyi nəticəsində ölümdən xilas olmuşam.

Həmin gün dərhal xəstəxanaya yerləşdirilib, üzərimdə cərrahiyə əməliyyatı aparılıb, yaralarıma çoxsaylı tikişlər vurulub. 21 gün xəstəxanada müalicə aldıqdan sonra ambulator müalicə üçün evə buraxılmışam və hazırda həkim nəzarətindəyəm. Buna baxmayaraq, həyatım üçün təhlükə sovuşmayıb, bədənimə vurulan çoxsaylı bıçaq yaralarından əziyyət çəkirəm. Mehman Qarayev isə bu əməlinə görə cinayət məsuliyyətinə cəlb olunmur. Dəfələrlə şəhər prokurorluğuna, polis şöbəsinə müraciət etsəm də mənə bildirirlər ki, M. Qarayev barəsində CM-in 221.3 maddəsi ilə cinayət işi qaldırılıb. Lakin o, bu gün də azadlıqda gəzir. İstintaq və məhkəmə təcrübəsində görünməyən çox nadir hadisədir ki, şəxsi öldürmək üçün çoxlu sayda bıçaq xəsarətləri yetirən şəxs azadlıqda gəzir. Mehman Qarayev bu gün də qardaşımın obyektində oturub oranı işlədir. Bəs qanun hanı? Bədənimdəki xəsarətlərə görə mən öhdəmdə olan ailəmi dolandıra bilmirəm".

Yazıda adı hallanan şəxslərə barələrində səslənən ittihamlarla bağlı söz haqqını tanıyırıq və qarşı tərəfin də rəyini dərc etməyə hazırıq.

❑ **Xalidə GƏRAY**



## Con Kerri Türkiyəyə gəlir

**ABŞ Dövlət katibi Con Kerri avqustun sonuna qədər Türkiyəyə səfər edəcək. Axar.az xəbər verir ki, bu barədə informasiyanı Türkiyə mətbuatı yayıb. Hələlik səfərin tarixi dəqiqləşdirilməyib.**

Qeyd edək ki, bundan öncə Türkiyə baş naziri Binəli Yıldırım da avqust ayı ərzində ABŞ-ın yüksək vəzifəli rəsmilərindən birinin Ankaraya səfər edəcəyini açıqlamışdı.

## Ankaradan Vaşinqtona Gülənlə bağlı 85 qutu sənəd göndərildi

**Türkiyə hökuməti 15 iyul hadisələrinin baş verməsində günahlandırdığı Fətullah Gülənin ABŞ-dan ekstradisiya edilməsində israrını davam etdirir.**

Lent.az-ın məlumatına görə, rəsmi Vaşinqtonun Fətullah Gülənlə bağlı sübutların təqdim edilməsi tələbindən sonra onu təhvil verə biləcəklərini açıqlamasının ardından vaizlə bağlı 85 qutu sənəd okeanın o tayına göndərilib. "Washington Post"un xəbərinə görə, 77 yaşlı Fətullah Gülənlə bağlı ifşaedici materiallar Ankaradan təyyarə ilə yola salınıb. Bu sənədlərdə Gülən camaatı təşkilatının Türkiyənin dövlət strukturlarına necə sızması detalları ilə göstərilib.

Qeyd edək ki, Fətullah Gülən ABŞ-a 1999-cu ildə köçüb və bu ölkəyə həmin vaxt turist vizası ilə daxil olub. Daha sonra CİA əməkdaşı Qraham Füllerin dəstək məktubu ilə Gülənə yaşamaq icazəsi verilib.

## Ekspertdən neftlə bağlı mühüm proqnoz

**"Brent" markalı neftin orta qiyməti bu il çox güman ki, 42,5 dollar həddini keçə bilməyəcək. Axar.az xəbər verir ki, bu barədə Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban açıqlama verib. Ekspert 2016-cı il üçün neftin orta qiymətini proqnozlaşdırıb:**

""Brent" markalı neftin orta qiyməti bu il çox güman ki, 42,5 dollar həddini keçə bilməyəcək. Bu, ötən ildəki qiymət göstəricisindən 10 dollar azdır. Nəticədə neftdən asılı iqtisadiyyatlar üçün neftin 3 il durmadan ucuzlaşması ciddi problemə çevrilir".

Qeyd edək ki, "Brent" markalı neftin 1 bareli hazırda 43,30 dollar, VTİ markalı neft isə 41,14 dollar dəyərindədir.

YENİ MÜSAVAT
N 170 (6491) 5 avqust 2016

# “Yavər Camalov jurnalistləri məhkəmə ilə hədələməkdənsə, qəzetlərə müsahibə versin”

**Azər Ayxan:** “Partlayış baş verib, insanlar ölüb, bunlar cəmiyyəti informasiyasızlıq mühitində saxlayırlar”

**İyulun 26-da Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeliyində olan və Şirvana şəhərində yerləşən hərbi təyinatlı “Araz” zavodunda baş verən dəhşətli partlayışın səbəbləri barədə hələ də ətraflı rəsmi məlumat verilmir. Bir həftədən artıq vaxt keçməsinə baxmayaraq, 2 nəfərin ölümü, 26 nəfərin yaralanması ilə nəticələnən partlayışın səbəbləri, fəsadların aradan qaldırılması ilə bağlı görülən işlərin nəticələri haqda ortada ciddi və məntiqli izahat yoxdur.**



Əksinə, bununla bağlı məlumat yayan kütləvi informasiya vasitələri məhkəmə ilə hədələnir. MSN-in mətbuat xidməti baş verən hadisə ilə bağlı “Yeni Müsavat” qəzeti də daxil olmaqla, bu haqda məlumat dərc edən mətbuat orqanlarına barmaq silkələyib.

**“Yeni Müsavat” qəzeti baş redaktorunun birinci müavini Azər Ayxan** məsələ ilə bağlı musavat.com-a açıqlama verib: “Müdafiə Sənayesi Nazirliyinin yaydığı bəyanat bir daha onu göstərdi ki, hələ də bəzi rəsmi qurumlar - nazirliklər, dövlət komitələri mətbuatla işlərini doğru qurmayıblar. Bu nazirliklərdən biri də heç şübhəsiz ki, Müdafiə Sənayesi Nazirliyidir. Bu nazirlik indiyə kimi jurnalistlərlə, mətbuatla yalnız hədə dilində danışıb. Qəzetləri məhkəməyə verəcəkləri ilə təhdid edirlər. Təsəvvür edin, son bir ildə Yavər Camalovun rəhbəri olduğu nazirliyin nəzdində fəaliyyət göstərən iki zavod partlayıb. Mətbuat bu barədə yazır, araşdırma aparır, Yavər Camalov tabeliyində işləyənlərə tez göstəriş verir ki, bu mövzuda yazan mətbuat orqanlarını məhkəmə ilə hədələyin”.

**A.Ayxanın sözlərinə görə, mətbuatla, jurnalistlə işləməyin qaydaları var:** “Həmin partlayışdan sonra jurnalistlərin qarşısına çıxmaq, mətbuat konfransı keçirmək, redaksiyaları press-reliz yağışına tutmaq əvəzinə, bu barədə yazan qəzetləri, jurnalistləri məhkəmə ilə hədələyib. Biz təklif edirik ki, bizi hədələməkdənsə, bizimlə əməkdaşlıq etsinlər. Böyük bir hadisə baş verib, zavod partlayıb, ölən və yaralananlar olub. Bunun üzərindən hansısa bir jurnalist araşdırma aparırsa, yazı yazırsa, ehtimallar irəli sürürsə, jurnalistə kömək etmək lazımdır ki, cəmiyyətə daha doğru məlumat verə bilsin. Başa düşürük, ola bilsin ki, bu, dövlət sirri olsun, dövlət maraqlarını təhdid edəcək bir informasiya olsun, bunu biz anlayışla qarşılayarıq, hətta verməyə də bilərik. Lakin bunu da kübar dildə, sivil qaydada redaksiyalara çatdırmaq lazımdır. Biz enində- sonunda həm də Azərbaycan Respublikasının vətəndaşlarıyıq. Bu ölkənin, dövlətin maraqlarını Yavər və Mərdan Camalov qardaşlarından az düşünmürük. Fəqət mətbuatla, jurnalistlə işləməyin qaydaları var. Bunları nəzərə almaq lazımdır. Təsəvvür edin, Türkiyədə oxşar hadisələr baş verir. O sahəyə rəhbərlik edən nazir günlərlə kameralar qarşısından çəkilmir. Canlı yayımlara qoşulur. Türkiyə jurnalistləri prezidenti, baş naziri, ordu rəhbərliyini canlı yayıma qoşurlar. Onlarla istədikləri vaxt əlaqə saxlaya bilirlər. Bizdə isə bir icra başçısından kiçik açıqlama almaq problemdi. Təsəvvür edin, partlayış baş verən rayonun - Şirvanın icra başçısı Mərdan Camalovu bir həftədir danışdıra, ondan açıqlama ala bilmirik. Zəng edirik, hər dəfə tədbirdə, toplantıda olduğu bildirilir. Mətbuatın suallarına cavab vermək onun vəzifəsidir. Verə bilmirsə, məsuliyyət daşıyır. Bəs cəmiyyət necə bilgilənsin? Necə maraqlansın? İnsanlar baş vermiş hadisəni haradan öyrənsinlər? Bəzən məmurlara sual veririk, deyir, bunun mətbuata nə dəxli var? Bilavasitə dəxli var. Bəs cəmiyyət mətbuat üzərindən bilgilənir, oradan informasiya alır. Kütləvi informasiya vasitəsiyik. Bizim vasitəmizlə kütlələr, on minlər, milyonlar informasiya alır. İnformasiya qıtlığı ölkədə ərzaq qıtlığı, çörək qıtlığı kimi təhlükəlidir. Ona görə də Yavər Camalova təklif edirəm ki, bizi məhkəmə ilə hədələtdirmək əvəzinə, mətbuat konfransı keçirsin, müsahibə versin. İcra başçısı olan qardaşı müsahibə versin. Biz nə yazaq? Mətbuat xidmətinə zəng edirik, əlaqə saxlamaq mümkün deyil. Əlaqə saxlayanda söz soruşmaq, hansısa sualı dəqiqləşdirmək mümkün deyil. Nazirin özünə, müavinlərinə, icra başçısına çıxmaq, əlaqə saxlamaq mümkün deyil. Bəs jurnalist nə yazsın? Bir bunu düşünürlərmi? Niyə informasiyasızlıq mühitində saxlayırlar cəmiyyəti?”



Xatırladaq ki, Müdafiə Sənayesi Nazirliyi baş vermiş hadisənin nəticələri barədə qısaca olaraq qeyd edir ki, nəticələrin aradan qaldırılması işlərinə başlanılıb.

**Sonda qeyd edək ki, prezident İlham Əliyevin sərəncamı ilə “Araz” zavodunda baş vermiş partlayışla əlaqədar Dövlət Komissiyası yaradılıb. Baş nazirin 1-ci müavini Yaqub Eyyubovun sədrlik etdiyi komissiyanın bu günə qədər keçirdiyi toplantılar, görülən işlərlə bağlı ictimaiyyətə heç bir məlumat verilmir.**

❑ RÖYA



# Ermənistandakı rus əsgərləri ölüm qorxusu altında

Hərbi ekspert Gümrü hərbi bazasından fərarilik hallarının artmasının səbəblərini şərh edir; **Üzeyir Cəfərov:** “Elə vəziyyət yaranıb ki...”

**Daha bir rus əsgəri Ermənistandakı 102 saylı Rusiya bazasından qaçarkən Ermənistan-Türkiyə sərhədi yaxınlığında yaxalanıb. Erməni mediasının yazdığına görə, Rusiya hərbçisini sərhədyanı Voskeask kəndinin sakini Gevorg Serobyan görüb. O, bu barədə “Aravot” (“Səhər”) qəzeti əməkdaşına danışıb.**

Kəndli əsgəri saxlayıb haraya getdiyini soruşub. Onun 1996-cı il təvəllüdlü əsgər Sergey Şilov olduğu məlum olub. Əsgər Şilov iki ildir ki, Gümrüdəki bazada xidmət etdiyini, artıq yorulduğunu, Ermənistanda hərbi hissədə qalmaqdansa Türkiyəyə getməyi üstün tutduğunu deyib. Rus əsgər silahlı olmayıb, üzərində yalnız saat, kompas və çanta olub. Erməni kəndli dərhal Rusiya bazası rəhbərliyinə məlumat çatdırıb. Nəticədə əsgər Sergey Şilov sərhəd pozucusu kimi Ermənistan sərhədini qoruyan Rusiya Federal Təhlükəsizlik Xidmətinin qoşunlarına təhvil verilib.

Qeyd edək ki, bu, qısa zamanda qeydə alınan artıq ikinci faktdır. Gümrüdəki Rusiya hərbi bazasındakı əsgərlərin son zamanlar Ermənistandan qaçma hallarının artmasının nədən qaynaqlandığı barədə müxtəlif fikirlər bildirilir.

**Hərbi ekspert Üzeyir Cəfərov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Rusiyanın Gümrüdəki hərbi bazasında çox gərgin bir vəziyyət var:** “Ermənistan daxilində yaşananlar bura da öz təsirini göstərir. Təxminən bir il 102-ci saylı hərbi bazanın əsgəri Valeri Permyakovun hərbi hissədən qaçdıqdan sonra bir erməni ailəsini qətlə yetirməsi hadisəsi vəziyyəti bir qədər gərginləşdirib. Həmin hadisədən sonra 102 saylı bazanın Gümrüdən çıxarılması məsələsi gündəmə gəlmişdi, erməni əhali həmin hərbi bazaya, oradakı hərbçilərə qəzəb ifadə edirdilər - baxmayaraq ki, bazanın komandiri milliyyətcə ermənidir, amma o, Rusiya vətəndaşı olan ermənidir. Onun özündən və hərbi bazadan erməni əhalisi çox narazıdır. Rusiya ilə Ermənistan arasında razılaşma var ki, 102-ci baza ilə bağlı mümkün qədər az məlumatlar ortaya çıxsın, neqativ fikirlər səsləndirilməsin. Amma hamının ağzını bağlamaq mümkün deyil. Sosial şəbəkələrin, mediaya çıxmaq, xəbər ötürmək imkanlarının xeyli dərəcədə genişləndiyi bir dövrdə hər şeyi gizli saxlamaq mümkün deyil. Gümrüdəki Rusiya hərbi bazasının əsgərləri öz üzərilərində daim basqı hiss edirlər, qorxu altında yaşayırlar. Məkrli ermənilər Permyakov hadisəsini unutmurlar və bu hadisənin əvəzini Gümrüdəki rus əsgərlərdən çıxmaq üçün fürsət gəzirlər. Əsgərlər qorxu altında yaşayır”.

**Hərbi ekspert onu da dedi ki, son aylarda Ermənistan cəmiyyətində Rusiyaya qarşı münasibət kəskinləşib:** “İnsanlar Rusiya bayrağını yandırır, hiddətlərini ifadə edirlər. Bu da hərbi bazadakı əsgərlərin durumunu bir qədər ağırlaşdırıb. Əvvəllər 102-ci bazadakı rus əsgərləri çox rahat şəkildə şəhərə çıxırdılar, rahat gəzir, istirahət edirdilər. İndi elə vəziyyət yaranıb ki, ermənilərin qorxusundan hərbi hissədən kənara addım atmaqdan ehtiyat edirlər, haqlı olaraq ölüm təhlükəsinin olduğunu düşünürlər. Faktiki olaraq rus əsgərlər orada şərti məhkumluq həyatını yaşayan insanların statusuna bərabər vəziyyətdədirlər. Bezənlər, dözə bilməyənlər isə hərbi hissəni gizli tərk edib Ermənistandan qaçmağa çalışırlar. Qaçış halları çox baş verir, çoxunu gizlədirlər. Valeri Permyakov hadisəsindən sonra rus əsgərlərinin Ermənistanda əvvəlki kimi rahat xidmət keçməsi çətinləşib, risklidir. Ona görə də əsgər qaçıb xilas olmaq istəyir. Türkiyəni öz təhlükəsizliyi üçün daha məqbul ölkə sayır rus əsgəri. 102-ci baza 2049-cu ilədək Ermənistan ərazisində olacaq. Artıq Rusiyada valideynlər də övladlarının Ermənistandakı hərbi bazada xidmət keçməsindən narahatdırlar və bunu istəmirlər. Ona görə də həmin hərbi bazaya artıq çox çətinliklə kontingent yığılır”.

❑ Etibar SEYİDAĞA

# Akif Çovdarov intihar edib? - Rəsmi açıqlama

**Akif Çovdarovun Kürdəxanıda yerləşən 1 saylı Bakı İstintaq Təcridxanasında bir neçə gün öncə intihara cəhd etməsi barədə xəbər yayılıb.**



“Milli Təhlükəsizlik Nazirliyinin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun intihar etməsi ilə bağlı xəbər həqiqəti əks etdirmir”. Bu açıqlamanı bizimyol.info saytının sorğusuna cavab olaraq, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqov verib.

Qeyd edək ki, 24saat.org saytı Akif Çovdarovun Kürdəxanıda yerləşən 1 saylı Bakı İstintaq Təcridxanasında bir neçə gün öncə intihara cəhd etməsi barədə xəbər yayıb. Xəbərdə bildirilir ki, sabiq general kamerasında asılmış vəziyyətdə aşkarlanıb və dərhal xəstəxanaya yerləşdirilib. Məlumatda o da qeyd olunur ki, hadisə Kürdəxanı təcridxanasına yeni rəis təyin olunan gün baş verib.

Bir neçə gün əvvəl 1 saylı İstintaq Təcridxanasının rəhbəri Azər Seyidov işdən çıxarılıb və hazırda təcridxananın rəisi vəzifəsini təcridxanaya yeni rəis müavini təyin edilmiş Rəşid Səfərov müvəqqəti icra edir.

Xatırladaq ki, ötən ilin sonlarında MTN ətrafında baş verən hadisələrdən sonra bu qurumdakı bir çox vəzifəli şəxslərlə yanaşı, Akif Çovdarov da həbs edilib. A.Çovdarova vəzifə səlahiyyətlərindən sui-istifadə, rüşvət alma, qanunsuz azadlıqdan məhrum etmə və digər maddələr üzrə ittiham irəli sürülərək barəsində həbs-qətimkan tədbiri seçilib. Akif Çovdarovla bağlı cinayət işi üzrə ibtidai istintaq başa çatıb. Hazırda vəkillər və tərəflər cinayət işinin materialları ilə tanış olurlar. Tanışlıq mərhələsi başa çatandan sonra iş baxılması üçün məhkəməyə göndəriləcək.

YENİ MÜSAVAT
N 190 (6491) 5 avqust 2016

## “Ən yaxşı məktəb” və “Ən yaxşı müəllim” mükafatlarının ləğvinin səbəbi

### Etibar Əliyev: “Bu proses müəllimlər və məktəblər arasında rəqabət mühiti formalaşdırmırdı”



**Prezident İlham Əliyev “Ən yaxşı ümumi təhsil müəssisəsi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 4 sentyabr tarixli 2373 nömrəli Sərəncamının ləğv edilməsi və Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın icrası ilə əlaqədar bəzi məsələlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, “Ən yaxşı ümumi təhsil müəssisəsi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında” sərəncam ləğv edilib. Sərəncamda qeyd olunub ki, “Ən yaxşı ümumi təhsil müəssisəsi və ən yaxşı müəllim mükafatları” üçün dövlət büdcəsində hər il üzrə nəzərdə tutulan vəsait hər il təhsildə inkişaf və innovasiyalar üzrə qrant layihələrinin həyata keçirilməsinə yönəldilsin.

Bir çoxları bu mükafatların ləğv edilməsini düzgün hesab etmir. Onların fikrincə, məktəblər və müəllimlər arasındakı rəqabət aradan qalxacaq ki, bu da təhsilin səviyyəsinə o qədər də yaxşı təsir etməyəcək. Ancaq bunun əksini düşünənlər də var. **Təhsil eksperti, fəlsəfə doktoru Etibar Əliyev “Yeni Müsavat” qəzetinə hələ bir neçə gün öncə bununla bağlı maraqlı fikir söyləmişdi:** “Hər tədris ilində ”ilin yaxşı müəllimləri" və “yaxşı məktəbləri” seçilib, pulla mükafatlandırılır. Lakin motivasiya aşağı düşür".

**Məlum sərəncamdan sonra E.Əliyevlə bir daha danışdıq. Ekspert həmin fikrində qaldığını və bunun düzgün bir qərar olduğunu bildirdi:** “Fikrimcə, prezidentin bu sərəncamı təhsillə bağlı imzalanmış digər sərəncamlar kimi mühüm əhəmiyyət kəsb edir. Bu sərəncam təhsildə inkişafa və innovasiyaların tətbiqinə şərait yaradacaq. ”Ən yaxşı ümumi təhsil müəssisəsi" və "ən yaxşı müəllim" mükafatlarının təsis edilməsi haqqında" sərəncam yalnız orta təhsili əhatə edirdi. Müşahidələrimiz onu göstərir ki, bu proses müəllimlər və məktəblər arasında rəqabət mühiti formalaşdırmırdı. 2007-2008-ci tədris ilindən başlayaraq hər tədris ilində bir dəfə olmaqla, müsabiqə əsasında 50 ən yaxşı ümumi təhsil müəssisinə 10.000 manat məbləğində, 100 ən yaxşı müəllimin hər birinə 5.000 manat məbləğində birdəfəlik mükafatlar verilib. Göründüyü kimi, artıq xeyli sayda yaxşı məktəb və yaxşı müəllim müəyyənləşdirilib. “Yaxşı məktəblər” və “yaxşı müəllimlər” öz yollarını davam etdirməlidirlər".

**Təhsil eksperti təhsil sisteminin inkişafı üçün qrant layihələrə böyük ehtiyac olduğunu dedi:** “Azərbaycan təhsil sisteminin inkişafı və innovasiyaların tətbiqi üçün qrant layihələrinə böyük ehtiyac var. Lakin maliyyə çatışmazlığı ucbatından son illər qrant müasabiqələrinin sayı azalıb və elan edilən layihələr kiçik qrantlar adı ilə gerçəkləşdirilib. Təcrübə göstərir ki, qrant layihələri vətəndaş cəmiyyətinin güclənməsi üçün mühüm vasitədir. Məktəblərin, müəllimlərin, universitetlərin qrant layihələrində iştirakı vacib məsələlərdən biridir. Bunun özü rəqabət mühitinin formalaşması üçün əhəmiyyətlidir. Sərəncamda həmçinin vəsaitlərin verilmə prosedurlarının, monitorinqin aparılmasının, hesabat və qiymətləndirmə üzrə tələblərin müəyyənləşdirilməsi nəzərdə tutulur. Bütün bunlar qrant vəsaitlərinin səmərəli xərclənməsinə yönəlik tədbirlərdir. Qeyd edim ki, sərəncamdan öncə Təhsil Nazirliyinin elan etdiyi qrant layihələrində layihələrin qiymətləndirilməsi və şəffaflığın təmin olunması üçün xeyli işlər görülüb. Sərəncamdan irəli gələn məsələlərin həlli həm də qrant layihələrinin səmərəli işlənməsi üçün sistemli fəaliyyət formalaşdıracaq. Sərəncam qeyri-hökumət təşkilatlarının, təhsil ekspertlərinin, təhsil sahəsində yazarların, təhsil müəssisələrinin qrant layihələrində iştirakına yeni üfüqlər açır”.

❑ **Günel MANAFLI**

---

**Hazırda həm əhalinin, həm də bank sektorunun ən böyük problemlərindən biri də ödənməyən kreditlərdir. Ölkədə baş verən iki devalvasiyadan sonra xarici valyutada olan kredit borclarının məbləğinin birdən-birə iki dəfə artması insanları çıxılmaz vəziyyətdə qoyub. Digər tərəfdən, iş yerlərinin bağlanması, gəlirlərin azalması və bahalaşma insanların krediti ödəmə imkanlarını da məhdudlaşdırıb. İnsanların bir qismi kredit ödəmələrini tamamilə dayandırıb, digərləri isə daha az məbləğ ödəməklə vaxtı uzatmaq məcburiyyətində qalıblar.**

# Kredit problemi olanların güman yeri - “Antikollektor”...

### “Bizi inandırmağa çalışırlar ki, Azərbaycanda kollektor fəaliyyəti yoxdur, ancaq bilirik ki, onlar gizli şəkildə mövcuddur”

Qeyd edək ki, Konstitusiya Məhkəməsi müştərilərə güzəşt etmək barədə banklara göstəriş versə də, banklar bu istiqamətdə ciddi addım atmadı. Ən böyük problemlərdən biri isə borcunu ödəyə bilməyən vətəndaşların kollektorlar tərəfindən qanunsuz olaraq təhdid edilməsi, sıxışdırılmasıdır. Bu problem hətta bir neçə borclu vətəndaşın intiharı ilə də nəticələnib. Ölkədə kredit problemi olan vətəndaşlara yardım edən və kollektorlara qarşı mübarizə aparan yeganə qurum isə “Antikollektor” MMC-dir. “Antikollektor” Məhdud Məsuliyyətli Cəmiyyəti 2016-cı ilin martında fəaliyyətə başlayıb. “Yeni Müsavat” qəzetində bir neçə dəfə bu qurumun fəaliyyəti işıqlandırılıb. “Antikollektor”un yaradılmasından 6 ay keçdiyi bir vaxtda əməkdaşımız yenidən qurumun fəaliyyətini işıqlandırıb. “Antikollektor” MMC-nin Bakı şəhəri, Nəsimi rayonu Puşkin küçəsi, 13A ünvanında yerləşən ofisində hüquq məsləhətçiləri və şikayətçilərlə həmsöhbət olub.

**“Antikollektor” MMC-nin aparıcı hüquq məsləhətçisi Cavid Əhmədov bildirdi ki, problemli kreditlərin səbəbi əsasən vətəndaşların vaxtilə dollarla götürdükləri kreditlərdir:** “Kreditlər dollarla götürülüb, daha sonra həmin valyuta manata nisbətdə bahalaşıb və borcun məbləği artıb, ödəmə müddəti isə qısalıb. Müraciət edən müştərilərin əksəriyyəti krediti xəstəliklə, digər gündəlik problemlərini həll etmək üçün götürüblər. Xəstəlikləri sağalıb, problemləri həll olunub. Lakin hazırda həmin kreditlərin ödəmələrində problem yaranıb. ”Antikollektor" MMC olaraq vətəndaşlara hüquqi məsləhətlər veririk, çünki əksəriyyəti hüquqlarını bilmirlər. Pulsuz konsultasiyalar aparırıq, problemlərini dinləyib, səbəblərini öyrəndikdən sonra ilkin olaraq məsləhətlər veririk ki, işlərini necə qura bilərlər, bank hansı formada təzyiq göstərə bilər, onların hansı hərəkətləri qanunsuzdur və sair. İnsanlara həm də psixoloji yardım göstəririk. Çünki banklar vətəndaşlara psixoloji təzyiqlər edir, onları məhkəmələrlə, həbslə hədələyirlər. Bizdə isə insanların əksəriyyəti qanunları bilmədikləri üçün onlara inanırlar. Qanunda isə deyilir ki, yalnız qərəzli şəkildə borc ödənilmədikdə vətəndaş məsuliyyətə cəlb edilə bilər. İnsanın qərəzli olub-olmamasını isə məhkəmə müəyyən edir. Məhkəmə araşdırır ki, vətəndaş imkanı olduğu halda borcunu ödəməkdən imtina edir, yoxsa imkanı yoxdur. Bu mənada insanlara köməklik edirik. Əgər işin məhkəmə perspektivi varsa, biz məhkəmələrini də aparırıq. Elə vətəndaşlar var ki, borcun müvəqqəti dondurulmasını istəyirlər, yəni vaxt udmaq istəyirlər. Çalışırlar ki, həmin vaxt ərzində də müəyyən qədər pul toplayıb kreditlərini bağlasınlar".

**Hüquq məsləhətçisinin sözlərinə görə, hazırda “Antikollektor”un apardığı məhkəmə işlərindən yekunlaşan proses yoxdur, bəzi proseslər uzanır, bəziləri qəsdən yubadılır:** “Elə proseslər var ki, bizim lehimizə qərarın çıxmaması üçün digər vasitələrlə məhkəmə və ya bank tərəfindən yubadılır. Hələ ki məhkəmədə hər hansı qərar çıxmadığı üçün hansısa qərarın qanunsuz olduğundan danışa bilmərəm, amma bizim şirkətə qarşı məhkəmələrin münasibəti normaldır”.

**Müsahibim deyir ki, bu günə qədər “Antikollektor”a min nəfərdən çox müştəri müraciət edib, onların əksəriyyəti imkansızlardır:** “Elə vətəndaşlar var rayonlardan telefonlarla müraciət edir, eləsi var birbaşa gəlir. Pulsuz məsləhət verilməsi də bir köməkdir. Biz təklif edirik ki, get və bankın səni məhkəməyə verməsini gözlə, sonra məhkəmədə çıxış et və öz mövqeyini bildir, qanunsuzluqları ortaya qoy. İzah edirik ki, müqavilənin hansısa şərti Mülki Məcəlləyə və ya digər qanunlara uyğun deyilsə, bunu məhkəmədə qabartmaq olar. Bu şəkildə əlimizdən gələn köməyi etməyə çalışırıq. İpoteka məsələlərində problem yaşayan vətəndaşlar da bizə şikayət edir. Belə ki, MTK müqaviləni manatla imzalayır, bank isə krediti dollarla imzalayır. Burada da problem yaşanır. Girov qoyulmuş avtomobillərlə bağlı da problem yaşanır”.

**Kollektorların qeyri-qanuni hərəkətlərinə gəlincə, C. Əhmədov Azərbaycanda kollektorların qanunsuz olaraq fəaliyyət göstərdiyini və vətəndaşlar üçün təhdid formalaşdırdığını qeyd etdi:** “Bizi inandırmağa çalışırlar ki, Azərbaycanda kollektor fəaliyyəti yoxdur. Ancaq biz bilirik ki, onlar qeyri-qanuni şəkildə, başqa adlarla bankların tərkibində borcların yığılması ilə məşğul olurlar. Borcların yığılmasını isə əsasən fiziki güc tətbiq etməklə, müxtəlif təhdid dolu zənglərlə, sms-lərlə həyata keçirməyə çalışırlar. Lakin başqa ölkələrdə olduğu kimi, bizim ölkədə də kollektorların elə də ciddi fiziki təhdidlərinə rast gəlməmişik. Yalnız bir dəfə bizə bir vətəndaş müraciət etmişdi. Onun kollektorda ciblərini yoxlayıb əlindəki 1-2 manat pulunu da almışdılar, hətta ofislərində şkafda saxlamışdılar. Bu formada təzyiqlər olub. Problemli kreditləri olan vətəndaşlara əsas tövsiyəm odur ki, qanunları oxusunlar, savadlı hüquqşünaslarla məsləhətləşsinlər, özlərini müdafiə eləsinlər”.

**Ekspertin sözlərinə görə, məhkəmələr zamanı bankların tərtib etdikləri müqavilələrdə onların əleyhinə işləyən yetərincə məqamlar var ki, bunlar müştəriyə güzəşt edilməsi üçün yetərlidir:** “Bankların tərtib etdiyi kredit müqavilələrində də bəzi problemlər var. Belə ki, bəzi maddələr görlə görünməyəcək qədər kiçik şriftlə yazılır. Banklar yaşayış minimumunu nəzərə almadan kredit verirlər. Bəzən görürsən ki, evin yeganə gəlir gətirəni olan, iki yüz manat maaş alan insana kredit verirlər.

Həmçinin manat adı ilə dollarla kreditlərin vətəndaşlara verilməsi, kredit şərtlərinin düzgün izah olunmaması da var. Bütün bunlar isə məhkəmə vaxtı kredit borcu olanın işinə yarayır".

**C.Əhmədov onu diqqətə çatdırdı ki, “Antikollektor” MMC-nin bölgələrdə də şöbələrinin yaradılmasına ehtiyac var. Çünki rayonlarda da problemli kreditlər və bankların borc sahiblərinə təzyiqləri ilə bağlı müraciətlər var.**









❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

**İki dəfə həbs olundum, qapalı və açıq tipli 3 həbsxana gördüm. İki sinifdən "xlebnik"lərim oldu - siyasətçilərdən və "oğru dünyası"ndan... Allahın yazısıdır, edəcək bir şey yoxdur. Bir jurnalist olaraq, 13-cü zonda "Bratva" ilə keçirdiyim günlər ömrə bədəldir. O günlərə dair gündəlik janrında kitabım da var...**



# "Oğrular" niyə çörəyin qədrini siyasilərdən daha yaxşı bilirlər...

Bilənlər bilir, "oğru dünyası" üçün "xlebnik" demək müqəddəs, toxunulmaz, doğmaların qədər yaxın və unudulmaz, uğrunda ölünəcək adam deməkdir. Bu prinsipi pozub, "xlebnik"inə qarşı getmək, onu ayağa vermək və onunla bağlı hansısa neqativ fikirləri ictimailəşdirmək, başqasına qeybət etmək xüsusi hadisə - "zapadlo" sayılır və bunun üçün fövqəladə müzakirələr qurulur. Haqlı olduğunu sübuta yetirə bilməyən tərəfə amansız cəzalar verilir, gözdən salınır, bəzən bütöv "zon"da ona salam belə verilmir.

Siyasətdən olan "xlebniklərim"dən "oğru dünyası"nda "zapadlo" kimi qiymətləndiriləcək addım atanlar oldu... Yerdə qalanlara çox şükür...

Amma mən onların hamısı üçün sonuna qədər mücadilə etdim, edirəm; haqsız olanda da ayağa verməsdim, verмirəm...

Bəzən deyirlər, filan məsələni niyə əvvəldən demirdin, yazmırdın? Çünki qarşımdakı bir "xlebnik" - 7.5 kvadratmetrlik kamerada 107 gün çörək və taleyimi paylaşdığım biri olub. Mən o günləri unudammıram...

Derim ki, heç olmasa, çörək məsələsində siyasətçilər də "oğrular" kimi olsunlar. Başqa məsələlərdə, haşa...

❑ Rauf ARİFOĞLU

# "Vitse-prezident olmaq istəyirəm"

## Hafiz Hacıyev: "Məndən soruşsanız ki, sabah çörək almağa pulun varmı, o zaman cavab verərəm ki..."

**"Referendumdan sonra yenə yaltaqları, rüşvətxorları, üzdə prezidentə yaltaqlanıb, arxada xəyanət edənləri gətirib ora yığsalar, bu, dövlətçilik ənənələrinə böyük zərbə olacaq"**



**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev "Yeni Müsavat"a müsahibə verib.**

*H.Hacıyev öncə keçiriləcək referendumla bağlı sualımızı cavablandırıb:*

- Ölkədə dəyişikliklər gözlənilir, prezidenti çalışır ki, Azərbaycanı irəli aparsın, dünyada daha da geniş təbliğ etsin, tanıtsın. Amma onun ətrafında olan bəzi qüvvələr buna imkan vermir, bu, birmənalı şəkildə belədir. Özünüz də görürsünüz ki, prezidentə nə qədər basqılar var - istər daxildən, istərsə də xaricdən. Prezident sərəncam verir, sərəncamlar icra olunmur. Məsələn, sizə bir fakt deyim: prezident İlham Əliyev 8-9 ay bundan əvvəl bir sərəncam verdi, "Ərzaq məhsullarının tədarükü və təchizatı" ilə bağlı böyük ASC qurumunu yaratdı, Kənd Təsərrüfatı Nazirliyinə tapşırıq verdi ki, iki ay müddətinə bununla bağlı Nazirlər Kabineti prezidentə hesabat versin. İnanırsız ki, bu günə qədər o fərman yerinə yetirilməyib?! Nəinki həmin fərman, bir neçə fərmanlar da var ki, yerinə yetirilməyib. Prezident də görür ki, verdiyi tapşırıqlar "sobataj" olunur, ona güclü komanda lazımdır.

Bu baxımdan, konstitusiyaya edilən dəyişiklikləri normal qarşılamaq lazımdır. Doğrudur, bəzi dırnaqarası müxalif qüvvələr bunu ölkədə şahlıq, hakimiyyətin bir əldə cəmləşməsi kimi qələmə verirlər. Mətbuata baxıram, indidən vitse-prezident kimi bəzi adlar çəkilir. O adların arasında çox layiqli adamlar var. Onun ətrafındakı xəyanətkar insanlardansa belə bir etibarlı insanlar olsa, daha yaxşıdır. Və yaxud mən Hafiz Hacıyev, cənab prezidentin yanında vitse-prezident olsam, bunun nəyi pis olar? Həqiqəti deyə, xalqımın problemlərini birbaşa prezidentə çatdıra və onun həll edilməsində böyük xidmətlərim ola bilər.

**"Məmurlar Qubada, Göygöldə, Qəbələdə və digər gözəl guşələrimizdə dincəlsinlər, amma hamısı xaricdəki bahalı villalarında dincəlir"**

Referendumdan sonra yenə də həmin "qocalar evində"ki pensiyaçıları, yaltaqları, rüşvətxorları, üzdə prezidentə yaltaqlanıb, arxada xəyanət edənləri gətirib ora yığsalar, bu, dövlətçilik ənənələrinə böyük zərbə olacaq. İstərdim ki, referendum keçirilsin və ləyaqətli insanlar seçilsin. Azərbaycan xalqı yeni simalar, üzlər görmək istəyir. İstərdim ki, müxalifət də bu məsələdə prezidentə kömək etsin ki, prezident ətrafını 30 illik kif basmış insanlardan təmizləsin.

***- Belə çıxır ki, vitse-prezident olmaq arzusundasınız?***

- İlham Əliyevin ətrafında mənim kimi etibarlı insan olsa, bunun nəyi pisdir?! Özüm nazir işləmişəm, böyük həyat təcrübəm var, kifayət qədər yaxşı vaxtımdır. Sizi inandırım ki, mən prezidentin yanında olsam, bir dənə yalan informasiya çatdırmayacam. Yoxsa ki, hamısı bir-biri ilə kirvədir, qız verib, qız alıblar. Bu insanları aparıb ətrafında vitse-prezident qoysa, çatışmazlıqların üstünü ört-basdır edəcəklər. Kənd təsərrüfatı naziri bir metr torpaqda taxıl əkməyib, yalandan deyir ki, guya ki, taxıl ehtiyatı 6 faiz artıb. Artıbsa, çörəyin qiyməti niyə qalxır?!

***- Deyilənə görə, bəzi məmurlar referendumun keçirilməsini istəmir. Güman edirlər ki, bu referendum gələcəkdə onlar üçün bir təhlükə ola bilər.***

- Nazirlər Kabineti "qocalar evi"ndən ibarətdir. "Qocalar evi"ndəki qoca kişilər bilirlər ki, referendumdan sonra səlahiyyətlərin əksəriyyəti vitse-prezidentlərə keçəcək. Onlar çöldəki ab-havanın, millətin duyğularını, sadə insanların yas yerinə gedib siyahıya 5 manat yazıla bilmədiklərindən xəbərsizdilər.

***- Bugünlərdə ANS telekanalının lisenziyasına xitam verildi. Bu qərara sizin münasibətiniz necədir?***

- ANS-in bağlanması ilə qətiyyən razı deyiləm. Mən prezidentdən xahiş edərdim ki, bu televiziya kanalı ilə bağlı öz humanistliyini göstərsin. Hər bir insan xətaya yol verə bilər. Mirşahin çıxıb həm Azərbaycan, həm də Türkiyə xalqından üzr istədi. ANS-in səhvləri olsa da Azərbaycanın müstəqillik tarixində böyük xidmətləri var, bunu danmaq olmaz.

***- Hazırda yay mövsümünün qızğın vaxtlarını yaşayırıq. Dövlət məmurlarının demək olar ki, hamısı artıq məzuniyyətdə, istirahətdədir. Amma siz hələ də iş başındasız. İstirahətə getməyi düşünmürsüz?***

- Sual versəydiz ki, "sabah çörək almağa pulunuz varmı?", onda sizə dolğun cavab verərdim. O məmurlar ki, Azərbaycanı sümürüb talayıblar, deyirlər ki, "Azərbaycanda turizmi inkişaf etdirək". Baxın, görün, birinin belə telefonuna zəng çatır? Qoy gedib Qubada, Göygöldə, Qəbələdə və digər gözəl guşələrimizdə dincəlsinlər, amma hamısı xaricdəki bahalı villalarında dincəlir. Hər halda, yaxın günlərdə onların da aqibətini görəcəyik.

***- Deputatların məzuniyyət pulu da mətbuatda və sosial şəbəkələrdə müzakirə olundu. Onlar bu müzakirələrə cavab olaraq deyirlər ki, həmin müavinət onların istirahətinə yetmir. Siz necə düşünürsüz?***

- Deputatlar gərək ilk növbədə onları seçən xalqı düşünsün. Bəziləri heç hansı rayondan seçildiyini bilmir. Həmin 6 min manat məzuniyyət müavinətini aldıqlarına gərək deyərdilər ki, "gəlin birləşib sosial təminatların ləğvinə, çörəyin qiymətinin qalxmasına imkan verməyək".

***- Ötən il şortik geyinənlərə qarşı mübarizəyə başladığınızı demişdiniz. Bu geyimdə olan kişiləri ayaqlarına "kislota" tökəcəyinizlə hədələmişdiniz. Bəs bu il də "şortiklilər"ə qarşı mübarizə aparmaq fikriniz var?***

- Yox. Belə olanda insanların azadlıqları əlindən alınmış kimi hesab olunur. Qoy o şortik tikənlərin də Allah işini avand etsin, onların şortikləri satılsın... Hər halda, qoy kim necə istəyirsə, o cür dincəlsin".

❑ Xalidə GƏRAY

# Tısbağanı dirəyin başına kim qoyub?



**Xalid KAZIMLI**

**Belə bir nəzəri kombinasiya düşünək: bir ölkədə hərbi çevriliş olur, baş tutur, ya tutmur, fərqi yoxdur və tezliklə məlum olur ki, çevrilişi edənlərin başçısı Rusiyada yaşayır və dövlət tərəfindən yüksək səviyyədə himayə olunur.**

Bu təqdirdə dünya ictimaiyyəti nə fikirləşəcək? Həmin ölkədəki hərbi çevrilişin Rusiya tərəfindən hazırlandığını düşünməyəcəkmi?

Hər kəs elə düşünəcək. Çünki başqa variant yoxdur. İşıq dirəyinin başında oturan quşla eyni yerdə görünən tısbağanın durumu fərqlidir. Quş ora özü qonubsa, tısbağanı ora mütləq bir qoyan var *(Bu, ABŞ prezidentliyinə namizəd Hilari Klintonun 16 il öncə ifadə etdiyi təşbehdir).*

Eyni durum hansısa qiyamçı generalın və ya siyasi xadimin İngiltərəyə, Almaniyaya, Fransaya sığınmış olması halında da keçərlidir. Yenə hamı baş tutan və ya tutmayan hərbi çevriliş üçün məhz İngiltərədən, Almaniyadan, Fransadan şübhələnəcək.

Hazırda ABŞ həmin vəziyyətdədir. İyulun 15-də Türkiyədə baş verən uğursuz hərbi çevriliş üçün bu ölkə şübhəli durumunda qalıb.

Son yüz ilin hərbi çevrilişlər tarixi göstərir ki, ən qalmaqallı və "uğurlu" çevrilişlərin arxasında mütləq böyük güclər, qüdrətli hərbi-siyasi dairələr durur. Superdövlətlərin dəstək vermədiyi hərbi çevriliş cəhdləri beşiyindəcə məhvə məhkumdur.

Türkiyədə baş verən 15 iyul çevrilişinin fiasko ilə nəticələnməsinə görə hesab etmək olardı ki, qüdrətli dövlətlər qiyamçılara dəstək verməyiblər. Ancaq məsələni mürəkkəbləşdirən təfərrüat, incəliklər, bağlılıqlar var. 15 iyul qiyamının iflas etməsi Ərdoğanın gücünün və türk xalqının qeyrətinin hesaba alınmamasının nəticəsində mümkün oldu.

ABŞ-ı şübhə altına buraxan ən böyük detal odur ki, hərbi çevrilişin təşkilatçısı, koordinatoru kimi adı çəkilən şəxs 15 ildən çoxdur ABŞ-ın Pensilvaniya ştatında, yüksək təhlükəsizlik çənbəri haləsində, dövlət himayəsində, üstəlik, xüsusi malikanədə prezidentlər kimi yaşayır.

Onun bu çevriliş cəhdində əli olduğuna dair çoxlu fakt ortaya çıxarılıb, yüzlərlə şahid ifadəsi var. Təkcə Türkiyə silahlı qüvvələrinin baş qərargahının rəisi Hülusi Akarın ifadəsi yetərlidir (Qeyd edək ki, qiyamçı generallar Akarı Fətullah Gülənlə telefon vasitəsilə danışdırmaq istəyiblər, ancaq o, imtina edib).

Belə olan təqdirdə ABŞ dövləti Fətullah Güləni Türkiyəyə təslim etməyə borcludur. Əgər ortada hər hansı bir ilişki, faş olunmasından qorxulacaq təfərrüat yoxdursa, bunu etmək çox asandır. F.Gülən Türkiyəyə verilir və ABŞ onun sonrakı aqibətini, istintaqını, mühakiməsini total diqqət altında saxlayır ki, ona qarşı hər hansı bir qanunsuz hərəkətlər, təzyiq-filan olmasın.

Ancaq ABŞ tərəfi bu xüsusda görünməmiş israrla direşməkdə, müxtəlif bəhanələr gətirərək Güləni Türkiyəyə verməkdən imtina etməkdədir.

Tərs kimi, Türkiyə tərəfi də israr göstərir, 15 iyul çevrilişinin açar-kilid isminin Fətullah Gülən olduğunu bildirərək, onu ABŞ-dan almağı milli məsələ halına gətirməkdədir.

İlk günlərdə tərəflər diplomatik etiket çərçivəsində danışırdılar, bəyanat, nota mübadiləsi edirdilər. Ancaq son günlərdə ara əməlli-başlı açılışır. Prezident Ərdoğan başda olmaqla bu mövzuda danışan türkiyəli dövlət adamları getdikcə daha açıq dillə ABŞ-ın müvafiq mövqeyini tənqid edir, ittihamlar səsləndirirlər.

Bu gedişlə, çox qısa müddətdə Türkiyə dövləti ABŞ-ı 15 iyul çevriliş cəhdinə görə rəsmən məsul tutduğunu bəyan edəcək.

Türkiyənin sabiq baş qərargah rəisi İlkər Başbuğ da bir müsahibəsində çevrilişin arxasında ABŞ MKİ-nin durduğunu istisna etməyib. General birbaşa olmasa da, dolayısı ilə bildirib ki, bu cür işlər elə-belə, durduğu yerdə olmur. Yəni tısbağanı işıq dirəyinin başına bir qoyan var.

Bunu o adam deyir ki, bundan əvvəl Türkiyədə baş verən iki hərbi çevrilişdə ABŞ-ın nə dərəcədə rol oynadığını hamıdan yaxşı bilir. Zatən, artıq bu barədə Türkiyədə hər kəs məlumatlıdır.

Bu günlərdə bu yazının müəllifi Türkiyənin ölkəmizdəki səfiri İsmayıl Alper Coşqunla görüşdə eyni suala cavab almaq istəyib. Ancaq cənab səfir peşəsinin tələblərinə uyğun olaraq diplomatik cavab verib və birbaşa hədəf göstərməkdən yayınıb.

Bununla belə, bəllidir ki, istər siyasi xadimlər, istərsə də diplomatlar bildiklərinin yalnız bir yarısını ictimaiyyət üçün açıqlayırlar. Bu baxımdan əgər Ərdoğanın komandası Güləni ABŞ-dan israrla istəyirsə, onu vermədiyinə görə ABŞ-ı ittiham ritorikasına keçibsə, artıq 15 iyul qiyamının arxasında hansı dövlətin durduğuna dair baş sındırmağa dəyməz.

Hər şey ortadadır və olduqca gözlənilməzdir. Dünya hegemonunun bu cür işlərdən əl çəkdiyi güman olunurdu. Heç demə, dünyanı, regionu qarışdıran təkcə Rusiya deyilmiş.

YENİ MÜSAVAT
N 170 (6491) 5 avqust 2016




# "Arif Hacılı çox ciddi yanlışa yol verib"

## Əli Əliyev: "Müsavatın çoxsaylı uğurlarında Rauf Arifoğlu və qəzetinin payını yaddan çıxarmaq insafsızlıqdır"

**Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev jurnalist Əvəz Zeynallının "Qaynar qazan" layihəsinin son qonağı olan Müsavat başqanı Arif Hacılının "Yeni Müsavat" qəzeti və baş redaktor Rauf Arifoğlu ilə bağlı dediyi fikirlərə münasibət bildirib. VİP sədri Əli Əliyevin həmin açıqlamasını olduğu kimi diqqətinizə çatdırırıq:**

"Dostumuz, hörmətli Əvəz Zeynallının "Qaynar qazan" layihəsinin son qonağı Müsavat başqanı Arif Hacılı olub. Arif bəyin təcrübəli və hazırlıqlı siyasətçi olduğu bu müsahibədə bir daha təsdiqini tapır. Ölkə siyasətinin mərkəz fiqurlarından, 92-93-cü il hakimiyyət komandasının aparıcı şəxslərindən, İsa Qəmbərin ən ardıcıl müdafiəçilərindən olan Arif Hacılı sıradan birisi olmadığını verdiyi müsahibənin ilk 2 hissəsində bir daha təsdiq edir.

Peşəkar saydığım Əvəz bəyin sual atəşindən yayınmaq və yaxud qarşılıq verməyin çətinliyini üzərində duymuş birisi kimi deyə bilərəm ki, A.Hacılı bu vəzifənin öhdəsindən layiqincə gəlir. Lakin öz statusuna uyğun olmayan bəzi yanlışlara da müəllifliyi, bu müsahibənin "duzunu" artırsa da, olmuşları təhrif edir.

Dünən (srağagün- red.) bu təhriflərdən birinə "Yeni Müsavat"ın baş redaktoru, hörmətli Rauf Arifoğlu gözəl bir cavab verib. Əlbəttə ki, Rauf bəyin yazısındakı həqiqətlərin əksəriyyətinə şahidlik etməsəm də, yazıda gətirilən dəlillərin bir qismini qəbul etməmək mümkün deyil.

Mənə elə gəlir ki, Arif bəy müsahibəsində ictimai təhdiddən yayınarkən müqəddəs sayıla biləcək dostluq münasibətlərinə xələl gətirməməli idi. R.Arifoğlu durduğu yerdə daim mövqeyində sabit olub.

Müsahibədə Müsavat Partiyasının çoxsaylı uğurlarından danışılan zaman Rauf Arifoğlunun və "Yeni Müsavat" qəzetinin payını yaddan çıxarmaq insafsızlıq olar. Bu sadə həqiqətə bütün ölkə şahidlik edib. Keçmiş dost və silahdaşın münasibətlərinə şərh vermək niyyətindən uzağam. Əminəm ki, hər ikisinin ağıl və dərrakə potensialı o qədər yüksəkdir ki, anlaşılmazlığı adlayacaqlar.





Müsavat başqanı, hörmətli Arif bəyin başqa bir təhrifinə aydınlıq gətirmək istəyirəm. Arif bəy 2005-2010-cu il hadisələrində çox ciddi yanlışa yol verib. Həmin dövrdə fəaliyyət göstərmiş "Azadlıq" siyasi bloku 2006-cı ilin əvvəlində təsis edilib. Həmin təsisatda Müsavat Partiyası da iştirak etmişdi. Qurumun digər həmtəsisçiləri ALP, ADP, AXCP və mənim rəhbərlik etdiyim qurum idi.

Müsavat Partiyası adıçəkilən "Azadlıq" siyasi blokunu, təkrar parlament seçkilərinə qatılmaq və bir ay əvvəl "Azadlıq" seçki bloku çərçivəsində öz iştirakları ilə saxta elan etdikləri seçkilər nəticəsində formalaşmış parlamentin işinə qatılmaq qərarı verdikdən sonra tərk etmişdilər. O dövrdə siyasi prosesləri yaxından təqib edənlərin hamısı Müsavat Partiyasının qəbul etdiyi, mənə görə yanlış taleyüklü qərarı, hamı bir nəfər kimi, yumşaq desək, lənətləyirdi.

Məhz Müsavatın, öz yoldaşları qarşısında öhdəliyini "unudaraq" parlamentin işinə qatılması ölkəni daha 5 il əzdi. Çünki o dövrdə İlham Əliyev indiki qədər güclü, müxalifət zəif, xalq isə inamsız deyildi. Qərb də prosesləri fərqli acıdan təqib edirdi.

Prosesi içəridən bilənlər unutmayıblar ki, Müsavatın qərarı, bu gün bəyənmədiyiniz Rauf bəyin qəzetində dərc edildikdən sonra "Parlamentdə müxalifət var" tezisi ilə surəti AŞ PA-nın müvafiq komissiyasında deputatlar arasında yayılaraq, beynəlxalq təşkilatın seçkilərin nəticəsi haqda keçirdiyi səsvermənin nəticəsində həlledici rol oynamışdı.

"Azadlıq" blokunun 4 il ərzində Müsavat Partiyasını tənqid etməsinin kökündə duran səbəb ümummüxalifət maraqlarına zidd, Arif bəyin də qəbulunda iştirak etdiyi həmin yanlış qərar olub. "Azadlıq" siyasi blokunun təsisçilərinin digərləri 4 il ardıcıl əməkdaşlıq ediblər. ADP siyasi bloku yalnız 2007-ci ilin sonlarında, daha 2 il fəaliyyətdən sonra tərk etmişdi. Blokun çökməsinin də səbəbi Müsavat Partiyasının parlament dövrünün başa çatması, müxalifət düşərgəsində mövqelərini bərpa təşəbbüsləri və aramızdakılardan birisinin nəfsinin ümmansızlığı ilə üst-üstə düşüb. Səbəbinin bir qismini Əvəz bəyin layihəsində açıqlamışam. Daha çılpağını isə mənə edilən bir xahiş və verdiyim söz səbəbindən demirəm".

# "Piket keçirməyi planlaşdırırıq"

## Tural Abbaslı: "İndiyə qədər edilən hüquqi dəyişikliklər müsbətə doğru deyil"

**AĞ Partiyanın sədri Tural Abbaslı gündəmi əhatə edən məsələlərlə bağlı "Yeni Müsavat"a danışıb.**

***- Ölkədə sentyabrda keçiriləcək referendumla bağlı artıq təşəbbüs qrupları yaradılıb. Necə hesab edirsiniz, onların prosesə hər hansı bir formada təsiri olacaqmı?***

- Ümumiyyətlə, Azərbaycanda seçki sistemi iflasa uğrayıb. Artıq Azərbaycan cəmiyyəti xalq olaraq, ictimaiyyət olaraq seçki sisteminə inanmır, iştirak etmirlər. Deyilə bilər ki, hansısa seçkidə aktivlik olur. Aktivlik olan seçkilər sırf seçicilərin şəxsi marağını əhatə etdikdə olur. Məsələn, seçicinin hansısa qohumu parlament seçkilərində namizədliyini verir və o, qohumunun parlamentə keçməsi üçün aktivlik edə bilər. Prezident seçkilərində bəlli bir çevrəyə yaxın olanlar, dəyişiklik olarsa, onun şəxsinə xeyir gələcək deyə aktivlik edə bilər. Bu seçkilərin içində ən passiv seçkilər adətən referendum seçkisidir. Xalqın ən az iştirak etdiyi seçkidir. Çünki insanlar burada birbaşa özlərinin şəxslərinə yönəlik nəsə görmürlər. Adətən konstitusiyaya dəyişikliklər birbaşa hüquqi sistemə aid olduğu üçün insanlar maraq göstərmirlər, yad bir proses kimi qəbul edirlər. Odur ki, seçici ilə işləmək, seçiciləri aktivləşdirmək, proseslərə cəlb etmək baxımından təbii ki, referendumun təsir edəcəyinə inanmıram. Amma partiyaların borcudur ki, seçkilərdə iştirak etsinlər, təbliğat aparsınlar və sair. Həmçinin də konstitusiya dəyişikliyində referendumun əleyhinə təbliğat aparmaq üçün də təşviqat qrupu yaratmaq kimi vəzifələri var. Bu, partiyaların işidir və buna görə fəaliyyət göstərirlər, onların hüquqlarıdır. Amma prosedur qaydalarını bilən biri kimi deyim ki, bu, indiki mərhələdə kolosal bir enerji tələb edir. Altmış dairədən qırx min imza yığılmalıdır, təşviqat qrupu yaradılmamışdan qabaq təşəbbüs qruplarının iclasları olmalıdır, sənədləşdirmə çox ağır bir prosesdir. Bu prosesdən sonra sənin əldə edəcəyin dividentlər nə olur? Hökumət sənə efirdə dörd dəfə vaxt, minimal təbliğat materialları çap etmək üçün minimum maliyyə ayırır. Belə götürəndə, orada



sərf olunan enerjiyə müqabil üstünlük almırsan, təbliğat imkanı əldə edə bilmirsən. Düşünürəm ki, bizim tərəfdən orada iştirak etmək enerji israfı olar. İndiki zamanda televiziyanı əvəz edəcək sosial şəbəkələr var, orada bir də görürsən, aparılan müzakirələr televiziyadan geri qalmır, təsiri olur. Burada da təbliğat aparmaq olar və 40 min imzaya ehtiyac olmaz. Yaxud insanları qapı-qapı salıb, repressiyaya məruz qoymadan da təbliğat aparmaq olar. Biz hələlik bu yolu seçmişik.

***- AĞ Partiya olaraq bu istiqamətdə hansı addımları atacaqsınız?***

- Artıq bir aydır biz qurultayımızı keçirmişik. Bir aylıq bir partiya üçün qırx min imzanın yığılması, təqdim olunmasının təşkili çətindir, indiki mərhələdə özümüzü hazır bilmədik. Əldə etdiyimiz dividentlərin qoyduğumuz enerjiyə müqabil olmadığını düşünərək biz açıq mövqeyimizi sosial şəbəkələrdə, qanunvericiliyin yol verdiyi digər yerlərdə bildiririk. Piket üçün müraciət edib razılaşdırılmış piket keçirmək barədə düşünürük. Piket də sivil mübarizə yoludur. Heç də piket və mitinqlər üçün təşviqat qrupuna ehtiyac yoxdur.

***- Referenduma çıxarılacaq hansı məsələdən daha çox narahatsınız?***

- Ümumiyyətlə, bu günə qədər hakimiyyət tərəfindən istər konstitusiyaya, istər hansısa qanunvericiliyə edilən dəyişikliklər insan haqları, demokratiya baxımından müsbətə doğru deyil. Əksinə, geriyə doğru atılmış addımlar olur. Bu konstitusiya dəyişiklikləri təklifləri də həmçinin bu cürdür. Məsələn, burada ümumiləşdirsək, onsuz da bizdə prezident üsul-idarəsi olaraq, prezidentin əlahiddə səlahiyyətləri var. Yəni normal prezidentli dövlətlərdə olan səlahiyyətdən qat-qat çoxdur bizim prezidentin səlahiyyətləri. Bundan başqa da artıq parlamentin də, Nazirlər Kabinetinin də bir çox səlahiyyətlərinin, hüquqlarının prezidentin əlində cəmləşməsi, prezidentin iradəsinə bağlanması hakimiyyətin qolları arasında parçalanmasının, bölünməsinin birtərəfli ağırlığını təmin edir. Prezidentlik üsul-idarəsi olan dövlətlərdə parlament əslində prezidentə nəzarət etməlidir, prezident parlamentə yox. Və yaxud orada şəxsi mülkiyyət haqqında dəyişiklik təklif olunub, şəxsi mülkiyyət sosial öhdəlik yaradır. Bu, həm hakimiyyətdaxili oliqarxların, həm də hakimiyyətdən nisbətən asılı olmayan biznesmenlərin asılı vəziyyətə salınmasıdır, birbaşa şəxsi mülkiyyət toxunulmazlığını aradan qaldıran nüanslardan biridir.

Orada texniki təkliflər də vardı. Milli sözü ilə etnik sözü ilə əvəz olunsun və sair. Bunlar da düşünürəm ki, digər əsas məsələləri ört-basdır etmək üçündür. Ən əsas prezidentin beş illik müddətinin birdən-birə yeddi ilə, prezidentə və parlamentdə tələb olunan yaş həddinin aradan qaldırılmasıdır. Əksər hüquqi dövlətlərdə yaş həddi var. Azərbaycan Respublikasının Prezidenti həm də Silahlı Qüvvələrin Ali Baş Komandanıdır. Sabah hansısa bir eyforik vəziyyət yaransa, iyirmi yaşlı gənci prezident seçsələr, bu gənc yüz minlik ordunun ali baş komandanı olaraq məsuliyyəti dərk edə biləcəkmi? Həyat təcrübəsi ona yetəcəkmi? Yaş məhdudiyyətinin götürülməsinə heç bir ehtiyac yox idi. Prezidentin səlahiyyət müddətini yeddi ilə qaldırmaq nə deməkdir? Bizdə həm də iki dəfədən artıq seçilmək limiti də aradan qaldırılıb. Deməli, bir adam üç dəfə prezident olsa, 21 il prezident olmuş olur.

Ümumiyyətlə, seçki prosesini, siyasi partiyaları sıradan çıxarmağa hesablanmış bir sistem qurulur. Biz bunun qəti əleyhinəyik. Xalqı da bu referendumda ümumiyyətlə iştirak etməməyə çağırırıq. İştirak edəcəklərsə də, əleyhinə səs verməyə çağırırıq. Bizim bu dönəmdə də AĞ Partiya olaraq fəaliyyətimiz bu tezislərlə olacaq.

❑ Röya RƏFİYEVA

**Xüsusilə son illərdə öz cəsarətli çıxışları, Türkiyə və Azərbaycanın ortaq maraqlarının müdafiəsi baxımından kəsərli mövqeyi ilə təkcə bu ölkədə deyil, Rusiyada da yaxşı tanınan professor Toğrul İsmayıl Türkiyə prezidentinin baş müşaviri, keçmiş mədəniyyət və turizm naziri Yalçın Topçu ilə görüşüb. Qardaş ölkədə 15 iyul çevriliş cəhdindən sonrakı proseslərdən bəhs edən budəfəki söhbətimizdə əvvəlcə Toğrul bəydən Prezident Sarayında baş tutan görüş haqqında ətraflı danışmasını xahiş etdik.**



# Azərbaycanlı politoloq Prezident Sarayına dəvət olundu, Ərdoğanın baş müşaviri ilə görüşdü

## Toğrul İsmayıldan Türkiyədəki son durum və gedən proseslərlə bağlı önəmli açıqlamalar; "Əgər bunlar hakimiyyəti ələ keçirsəydilər, Türkiyənin bölünməsi qaçılmaz olacaqdı..."

***- Toğrul bəy, təbii ki, bir azərbaycanlı professor, politoloq olaraq sizin Türkiyə prezidentinin baş müşaviri ilə görüşünüz Azərbaycan adına da çox yaxşı hadisədir. Əgər sirr deyilsə, "Yeni Müsavat"ın oxucularına açıqlardınız, görüş zərurəti haradan yarandı, təşəbbüs kimdən gəldi və nələri müzakirə etdiniz?***

- Sayın Yalçın Topçunun dəvəti ilə prezident iqamətgahında gerçəkləşən görüşümüzdə əsas olaraq Rusiya-Türkiyə münasibətlərindən danışdıq. Bildiyiniz kimi, qarşıda da prezident Ərdoğanın Rusiya səfəri gözlənilir. Rusiya ilə münasibətlərdən, böhran dönəmində nələr etdik, nələr etmədik, bunlardan bəhs etdik, Rusiya telekanallarındakı çıxışlarımız müzakirə mövzusu oldu. Bundan əlavə, bölgədəki vəziyyətdən, Azərbaycan-Türkiyə əlaqələrindən danışdıq. Geniş, ətraflı söhbətimiz oldu. Rus təbliğatının hələ də çox güclü olması, Rusyadan məlumatlar Amerika və Qərb mənbələrindən deyil, elə birbaşa Rusiya mediasının özündən izlənilməsinin əhəmiyyətindən bəhs etdik. Türkiyəmizdə Rusiya araşdırmalarının yetərli olmamasından və rus dilində təbliğatın zəif olmasından da söhbət etdik. Yalçın Topçu özü bir müddət öncə Azərbaycanı ziyarət etmişdi. Aprel döyüşlərindən sonra cəbhə bölgəsinə getmişdi. Orda çəkilmiş böyük bir fotosunu otağından asdırıb. Çox gözəl fotodur. Bundan əlavə, kabinetində Azərbaycan köşəsi var. Onu Türk dünyası köşəsinin bir bölümü kimi düzəldiblər. Təklif etdi ki, masa arxasında deyil, elə həmin köşənin qarşısında foto çəkdirək. Görüşümüz çox səmimi şəraitdə keçdi. Elə bil ki, keçmiş nazir və ya baş müşavir deyil, bir qardaş, dostla görüşdüm. Söhbətimiz o qədər səmimi şəraitdə keçdi ki, sanki qarşımdakı dövlət adamı, prezidentin baş müşaviri deyil, uzun illərin dostu vardı.

***- Artıq Türkiyədəki darbə cəhdindən üç həftə keçdi, ancaq xalq yenə də meydanlardadır. Söhbətiniz zamanı hakimiyyət təmsilçisində yeni çevriliş cəhdinin ola biləcəyindən dolayı narahatlıqlar müşahidə etdinizmi?***

- Yox, elə bir narahatlığı müşahidə etmədim. Düzdür, ehtiyat tədbirləri görülür. Amma açığını deyim, içəri girəndə də müşahidə etdim ki, giriş-çıxışlardan çox rahat şəkildə keçmək mümkündür. Hər kəs sakit şəkildə öz işini görür, fəaliyyətinə normal davam edir. Həbslər, işdən çıxarılmalar təbii ki var. Amma şəxsi fikrim budur ki, sui-qəsdlər və sairlə bağlı təhlükələr tam olaraq ortadan qalxmayıb. Fikir verirsinizsə, xaricdəki təbliğat sistemi çox güclü işləyir. Məsələn, hətta "Amerikanın səsi"nin azərbaycanca bölümünün mövqeyi də çox ilginc olub. Davamlı şəkildə Fətullah Gülənin yaxın adamlarını çıxarırlar, Türkiyə hökumətini "söydürürlər". Təəssüf ki, Qərb və Amerika mətbuatı Türkiyə haqqında fərqli, qeyri-dəqiq məlumatlar yayır.

> **"Fətullah Gülən məktəblərinin açılışında Türkiyə dövlət yetkililəri hamısı iştirak etmişdi, Turqut Özaldan tutmuş, Dəmirələ və başqalarına qədər"**

***- Belə iddialar var ki, Fətullah Gülənin arxasında ABŞ-dakı müəyyən dairələr dayanıb və əslində Türkiyədəki çevriliş cəhdinin planı onların masasında hazırlanıb. ABŞ-dakı bəlli çevrələr nədən Türkiyədə hakimiyyəti devirmək istəsin ki?***

- Hansı dairələrin nə rol oynadığını dəqiq deyə bilmərəm. Mən bu hadisəyə "çevriliş cəhdi" də demirəm, mənə görə bu, "qanuni hakimiyyəti zor yolu ilə ələ keçirmə cəhdi"dir. Bu hadisənin arxasından istəyir hərbçi, istəyir polis, yaxud məhkəmə sistemi işçiləri, hətta təhsil ocaqlarının nümayəndələri çıxdı. Hətta bir universitet müəlliminin Akıncı üstündə durub əməliyyatlara rəhbərlik etdiyi də faktdır, özü də orada tutulub. Bunlar varkən, baş verənlər, sadəcə, hərbi çevriliş cəhdidir deyə bilmərik, görünən o ki, geniş bir qrup öncədən ciddi hazırlanaraq qanuni hakimiyyəti qeyri-qanuni yollarla zəbt etməyə çalışıb. Ona görə də bu prosesdə həbs edilənlər, işdən uzaqlaşdırılanların sayı olduqca çoxdur. Bir də işdən uzaqlaşdırılanlar həmişəlik kənarda qoyulacaq demək deyil, onların tamamən işdən qovulması anlamına gəlmir. Hər kəs araşdırılır. Çox güclü bir şəbəkədən söhbət gedir. Bu şəbəkə hər yerə işləyib. Demək olar ki, bütün qurumlarda, strukturlarda mövcuddur və bir-biri ilə çox əlaqəli, bağlantıdadırlar. Özü də ölkədə böhran olmadığı, sakit ortam olduğu, hətta İsrail və Rusiya ilə barışığın əldə edildiyi, gələcəyə daha böyük ümidlə baxıldığı bir dönəmdə belə bir cəhdə əl atılması bunun bir sifariş olduğunun göstəricisidir. Bunun arxasında kim durur, deyə bilmərəm, hər halda, bunu məhkəmə üzə çıxaracaq. Bəlkə də üzə çıxara bilməyəcək. Amma kənardan dəstək və sifariş olmadan belə bir cəhdin edilməsi, məncə, mümkünsüzdür. Azərbaycan da bunu yaşayıb və sifarişlə hakimiyyətin ələ keçirilmə cəhdinin nə olduğunu çox yaxşı bilir.

***- Yəni deyirsiniz ki, 1993-cü ilin 4 iyununda Surət Hüseynovun Azərbaycanda oynadığı rolu 15 iyul 2016-cı il çevriliş cəhdində Gülən oynadı?***

- Eyni ssenariya ilə oynandı və Fətullah Gülən adı ilə bağlı qruplar oynadı. Bu ssenari ilə əgər Türkiyədə hakimiyyəti ələ keçirsəydilər, mənə görə, ölkənin bölünməsi qaçılmaz olacaqdı.

***- Hakimiyyətlə müxalifət növbəti aksiyada bərabər olacaqlar. Ən azı MHP-nin qəti qərarı var. Bu münasibətlər nə vəd edir?***

- Hər halda, görünən odur ki, hazırkı vəziyyətdə Türkiyədəki istər hakim partiya, istər müxalif partiyalar olduqca yaxın, ortaq məxrəc üzərindən hərəkət etməyə çalışırlar. Bu, Türkiyənin uzun illərdir ehtiyac duyduğu çox ciddi məsələdir. Bir daha Türkiyə vətəndaşları ciddi şəkildə dünyaya göstərdilər ki, baxışları nə qədər fərqli olsa da, onlar ölkənin ən ağır günlərində bir olmağı bacarırlar. Bu, çox ciddi məsələdir. Hər halda, Türkiyəni dağıtmaq istəyən imperialist güclərin də planları məhz bu şəkildə pozulub. İstəyir Atatürk dönəmində olsun, istərsə bu ağır günlərdə olsun, Türk xalqı bir daha inanc və siyasi görüş fərqinə baxmayaraq, mütəşəkkilliyini ortaya qoydu. Eyni zamanda bu, Türkiyədə nə dərəcədə kürd problemininin olub-olmadığını ortaya çıxartdı. Əslində kürd əsilli vətəndaşlar da bu böhran dönəmində Türkiyə dövlətinin bütövlüyü uğrunda digərləri ilə bərabər hərəkət etdilər. Türkiyə cəmiyyəti ortaq qaydada bir davranış nümayiş etdirdi. Əgər HDP da PKK ilə bağlılığını qopara bilərsə, onun nəzarətindən çıxarsa, Türkiyə bu məsələdə də yeni mərhələyə adlaya bilər.

***- Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Türk xalqı qarşısında üzrxahlıq etməsi kifayət qədər marağa səbəb oldu. Türkiyədə necə şərh olundu?***

- Bu üzrxahlıq, məncə, bir lider üçün gərəkən keyfiyyətdir. Gərək lider bir zaman üzr istəməyi də bacarsın. Bunlar çox önəmli insanı davranışlardır. Mənə görə, normaldır. Üzrxahlıq edilməsi, ondan sonra birdəfəlik olmaq şərtilə bütün məhkəmə iddialarının geri götürülməsi kimi jestlər bir lider üçün önəmlidir, onun bir insan kimi müsbət tərəflərini önə çıxarır.

***- "Xainlər məzarlığı"nın salınması məsələsi Azərbaycanda yaxşı qarşılanmadı. Hələ istintaqın getdiyi dönəmdə kimlərinsə "xain" elan olunması birmənalı qəbul olunmadı. Bəs qardaş ölkədə hazırkı münasibət necədir?***



> **"HDP də PKK ilə bağlılığını qopara bilərsə, onun nəzarətindən çıxarsa, Türkiyə yeni mərhələyə adlaya bilər"**

- Bunlar duyğusal, emossional hərəkətlər, "kraldan daha çox kralçı kimi görünmək" cəhdidir. Amma cəmiyyətdən təpkilər alındıqca təbii ki, geri addımlar atıldı. Burada bir məsələyə diqqət etmək lazımdır: öz xalqına terrorçu kimi silah qaldıranlar terrorçu kimi də dəfn edilir və terrorçuların məzarı bilinmir. Bu, Türkiyədə yazılmamış qanundur. Ümumiyyətlə, terrorçuların məzarı bilinməz. Türk ictimaiyyəti göstərdi ki, müəyyən məmur və idarə rəhbərlərinin "canfəşanlığından" fərqli olaraq, Türk xalqı daha məntiqli düşünür və davranır. Xalqın təpkisi nəticəsində də belə məsələlərdən geri addım atılmağa başlandı. Artıq bu kimi məsələlər yığışdırılıb. Gözlənilməz bir hadisə oldu, Türk ordusunun mənsubları öz millətinə silah çəkdi, bu, tarixdə olmayan bir şey idi. Ona görə də emosiyalar çox yüksək həddə qalxmışdı. Mən özüm də çox gərgin və həyəcan içərisindəydim. Anlaşılmayan bir şey idi. İndi yavaş-yavaş emosiyalar normal məntiqə yerini verir. Həm də ortalıqda çox yanlış xəbərlər dolaşırdı. Eyni zamanda bəzi məmurlar da canfəşanlıq göstərirdilər, bəlkə rəhbərlərin xoşuna gələcək, gözünə girəcəklər, deyə.

***- Toğrul bəy, Türkiyədə ölüm cəzasının bərpası barədə təklif də həmin emosional davranışların məntiqi nəticəsiydi?***

- Yox. Toplumda uzun müddətdir bu məsələ müzakirə olunur. Bu hadisələrdən sonra da məsələ daha geniş müzakirəyə çıxarıldı. Prezident də çox siyasi bir məharətlə xalqın səsini duyduğunu dedi və eyni zamanda topu Məclisə atdı. Burada da diplomatiya işə girəcək. Türkiyə ciddi dövlətdir, daha öncə aldığı qərarlar, imzaladığı anlaşmalar var. Xalq emosional təpki göstərə bilər. Amma ölüm hökmü qüvvəyə minsə belə, bu, insanlara şamil edilə bilməz, bundan sonrakı hadisələrdə gündəmə gələ bilər. Odur ki, bu barədə alınacaq qərarın 15 iyul olayları ilə bağlı heç bir mənası olmayacaq. Mən ilk gündən demişəm və təkrar edirəm: inanmıram ki, Türkiyədə edam cəzası bərpa olunsun. Türkiyə beynəlxalq müqavilələrə, anlaşmalara, hüquqa riayət edən bir dövlətdir.

***- Ankara Vaşinqtona dəlil-sübutlar göndərib və Fətullah Gülənin Türkiyəyə təhvil verilməsini təkidlə tələb edir. Gülənin Ankaraya təslim edilməsi gözləniləndirmi?***

- Amerikanın onu təhvil verəcəyini az ehtimal edirəm.

***- Xalq uzun müddətdir ki, meydanlardadır, demokratiyanı, konstitusiyanı müdafiə edir. Hakimiyyət narahat deyilmi ki, günün birində türk toplumu baş verənlərdən, mücadilədən usana bilər?***

- Bunu zənn etmirəm. Çünki bunlar bəlli, lokal yerlərdədir. Əgər siyasilər insanların meydanlara çıxıb-çıxmaması barədə qərar verirlərsə, onlar hər şeyi ciddi şəkildə hesablayırlar. Yəni bu gündəlik əhval-ruhiyyə ilə qəbul olunan qərarlar deyil. Meydana çıxmalardan məmnun olanın da, olmayanın da olması mümkündür. Amma Türkiyədə bəzi ölkələrdə olduğu kimi, "kefim istədi, qərar verdim" olmur. Burada xalqın davranışı, mövqeyi hər zaman siyasilər tərəfindən ölçülür, öyrənilir, sonra qərar verilir. Ərdoğanı sevirsinizmi, sevmirsinizmi kimi duyğusal məsələlərdən söhbət getmir. Bu gün qanuni yolla xalq tərəfindən yüzdə 52 faiz səslə seçilmiş bir prezident var və xalq da hüququn tərəfində dayanıb. Türk xalqı öz suveren hüququnu, əldə etdiyi demokratik düzəni qorumağa çalışır.

**Elşad PAŞASOY**



# Müəllimlər çörək yemir

Zamin HACI
zaminhaci@gmail.com

**Prezidentin sərəncamı ilə 2007-ci ildən bəri "Ən yaxşı məktəb", "Ən yaxşı müəllim" mükafatları düzəldilmişdi, hər il fərqlənən təhsil obyektlərinə, müəllimlərə pul verilirdi. Yanılmıramsa, məktəblər üçün mükafat fondu 10 min manat idi, müəllimlər də yəqin xeyli pul qatlayıb qoyurdular cibişdana.**

Doğrudanmı fərqlənən müəllimlər, məktəblər alırdı - bu haqda heç bir informasiyamız yoxdur. Böyük ehtimalla bu ödülləri təhsildə yox, yapizm yolunda böyük uğurlar göstərənlər, can qoyub çarpışanlar alırdılar. Misal üçün, bir dəfə seçki şousunda qutuya bülleten basdığı yerdə jurnalist kamerasına yaxalanan bədən tərbiyəsi müəllimi Diləfruz xala kimi.

Seçkilərdə göstərdiyi virtuoz qabiliyyətinə görə dövlət rəhbərliyi Əfruz xalanı "Seçki qəhrəmanı" ordeni, "3-cü dərəcəli Şəffaf qutunun jurnalistlərdən müdafiəsi" medalı və "Məzahir Pənahov adına seçki protokolu döş nişanı" ilə təltif eləmişdi.

Sözümün canı nədir? Dünən prezidentin növbəti sərəncamı ilə həmin mükafatlar - ən yaxşı müəllim və məktəblərə verilən pullar ləğv olunmuşdur. Bu da bizdə təhsilə diqqətin bariz nümunəsidir. Neft pulları azalanda biz birinci məktəbin, müəllimin boğazından kəsirik. Formula-1 olsun, Evrovizqon manıs yarışması olsun - belə şeylərə həmişə pul tapılır. Müəllim kimə lazımdır ki? Hökumət onsuz müəllimi sındırıb istədiyi işə alət edir, millət də çoxdan müəllimi ən hörmətsiz peşəyə çeviribdir, oğruya da "filankəs müəllim" deyə müraciət edirlər. Uşaq vaxtı biz elə bilirdik müəllim çörək yemir. İndi hökumət bunu reallaşdırır.

Doğrudur, qərarda mükafata ayrılacaq vəsaitin qrantlar şəklində istifadəsi nəzərdə tutulur. Ancaq mən şübhə edirəm ki, Azərbaycanda qrant sözünün mənasını bilən müəllimlərin sayı hər məktəbdə bir əlin barmaq sayı qədər olar, ya yox. Nə proje yazacaqlar, bunu kim yoxlayacaq, kim pul verəcək - hamısı qeyri-müəyyən işlərdir. Ən yaxşı halda Üstüaçıq rayon Peyinburnu kənd orta məktəbinə pozan və süpürgə alınması layihəsi düşünəcəklər, cüzi miqdar pul silinəcək, qalanı da heç büdcədən çıxmadan gələn ilə qalacaq. Vəssalam, şüttamam. Heç kimin ruhu incimeyəcək.

Ruh demişkən, dünən elə mükafatın ləğv qərarının yanında məktəblər haqda başqa xəbər vardı. İndi müəllimlər yay tətilinə çıxmalıdır, ancaq dövlət onları basıb işlədir özü üçün. Sentyabrdakı konstitusiya referendumuna hazırlıq işləri görülür, kim neçə nəfər gətirəcək, hansı müəllim onbaşıdır, bülleteni qutuya basan, protokolu oğurlayan, nəsli kəsilmiş müxalifətçi müşahidəçi adlı canlıdan biri məntəqədə görünsə kim yaxasını cırıb tumanı başına keçirtməlidir - bunlar hamısı müəyyənləşdirilir, məktəb direktorları tərəfindən əziz müəllimlərə tapşırıq və göstərişlər, təlimatlar verilir. Hətta elə müəllim var yaxalığına zəhər kapsulu yerləşdiriblər, sinəsində apardığı çoxlu bülleten düşmən qüvvələrin əlinə keçsə kapsulu dişiylə əzib intihar etməlidir. Müəllimlər səhər saat 9-dan axşam tərəfinə qədər məktəblərdə təlim keçirlər, referendum döyüşünə hazırlaşırlar. Bu, çox vacib referendumdur, demokratiyanın tabutuna vurulan son mıx olmalıdır, bəlkə bundan sonra ümumiyyətlə, müəllimlərə ehtiyac duyulmasın, seçkilər də keçirilməsin.

Bu qədər xidmətin əvəzində müəllimlərə dövlət qulluqçusu statusu verilmədi. Yadıma gəlir, 4-5 il qabaq bunun müzakirəsi açılmışdı, ancaq hakimiyyət müəllimlərə bu statusun gətirdiyi müəyyən güzəştləri qıymadı. Mən də olsam qıymazdım - guya hansı etiraz edir ki?

Yazını isə oxucumuz Vasif Həsənovun bu temada maraqlı məktubu ilə bitirmək istərdim: "Beş yaşlı qızım qohumlardan kimin harda işləməsini məndən soruşurdu. Növbə əmioğluya çatanda dedim ki, o, dövlət qulluqçusudur. Uşağın üzündə qorxu qarışıq təəccüb ifadəsi yarandı. Dedi, ata, bəs onun niyə başında üçkünc papaq yoxdur, niyə bir gözü sarıqlı, əli dəmir qarmaqlı, ayağı taxtadan deyil? Mən dedim niyə elə olmalıdır, qızım dedi: axı o dövlət quldurçusudur! Dedim yox, sən bəhs elədiyin dəniz quldurlarıdır, dövlət quldurçularının əksinə, yeddi başı, altı gözü, on iki ağzı, çoxlu əli-ayağı olur. O gündən bəri uşaq əmioğlunu görəndə hər dəfə qaçıb gizlənir".

# Düşmən ölkə başçısını Moskvada gözləyən üç "muncuq"

**Avqustun 8-də Bakıda Azərbaycan, Rusiya və İran prezidentləri arasında üçtərəfli görüş olacaq. Bir gün sonra Sank-Peterburq şəhərində Türkiyə və Rusiya prezidentləri bir araya gələcəklər. Artıq xəbər verildiyi kimi, Bakı sammitindən iki, Peterburq görüşündən cəmi bir gün sonra - avqustun 10-da isə prezident Vladimir Putin Moskvada Ermənistan prezidenti Serj Sərkisyanı qəbul edəcək.**



## Sərkisyan Kremlə təcili niyə çağırılıb - üç səbəb, biri Qarabağ...

Putinin Bakı, Ərdoğanın isə Peterburq səfərindən dərhal sonra Ermənistan prezidenti ilə Moskvaya təyin edilən görüşün pərdəarxası; **Rusiya prezidentinin müşaviri:** "Qarabağ danışıqlarında elə bu il sıçrayış olacaq..."

Yəni faktiki şəkildə Putin Bakı səfərindən və Ərdoğanla görüşdükdən dərhal sonra Ermənistan prezidenti ilə görüşəcək. Siyasi müşahidəçilər də ən çox bu məqama diqqət yönəldirlər. Görəsən, Putin-Sərkisyan görüşünün belə operativliyi nə ilə bağlıdır, Kreml başçısı satellit ölkənin rəhbərinə əsas nə deyəcək, ona bu dəfə hansı "muncuqlar" verəcək?

Kremlin rəsmi saytında qoyulan xəbərə görə, avqustun 10-da Rusiya və Ermənistan prezidentləri Moskvada ikitərəfli münasibətləri, habelə bir sıra aktual regional və beynəlxalq problemləri müzakirə edəcəklər. Bəs konkret nə diqqətdə olacaq?

*****

Suallara cavab tapmaq üçün öncə Bakı və Peterburq danışıqlarının gündəliyinə nəzər salmaq lazım gəlir. Artıq bəllidir ki, Bakıda Rusiya, İran və Azərbaycan prezidentləri səviyyəsində "Şimal-Cənub" nəqliyyat dəhlizinə dair məsələlər müzakirə olunacaq. Bəllidir ki, bu, üç ölkənin razılaşdırdığı və reallaşmaq üzrə olan strateji əhəmiyyətli nəqliyyat dəhlizidir.

Ancaq şübhə yox ki, Putinin Bakı səfəri zamanı Qarabağ məsələsi də əsas müzakirə mövzularından olacaq. Gözlənilir ki, Putinin Azərbaycan prezidenti İlham Əliyevlə ikitərəfli danışıqlarının əsas mövzusu məhz Dağlıq Qarabağ münaqişəsinə dair nizamlama prosesinin hazırkı vəziyyətinə həsr olunacaq.

Bundan əlavə, Rusiya mənbələri məlumat yaymışdı ki, prezident Putinin Bakı səfəri çərçivəsində iki ölkə arasında əlavə silah tədarükü ilə bağlı yeni müqavilələr imzalanacaq. Bakı ilə Moskva arasında silah ticarəti isə işğalçı Ermənistanı həmişə ciddi narahat edən, onu Rusiyadan narazı salan məsələdir.

Bu yerdə yada salaq ki, Kreml Azərbaycanla uğurlu hərbi-texniki əməkdaşlıq içində olsa da, müttəfiqi Ermənistana 200 milyon dollarlıq kredit həcmində silah-sursat verməyə tələsmir. Ehtimal ki, Rusiya prezidenti özünün Bakı səfərinin ardınca Ermənistan prezidentini Moskvaya çağırmaqla ilk növbədə müttəfiq ölkədə bununla bağlı narazılığı səngitmək, rəsmi İrəvanı və erməni ictimaiyyətini sakitləşdirmək niyyəti güdür.

İkinci motiv Qarabağa dair növbəti üçtərəfli sammitin təşkilini, həmçinin hələ ki gündəmdə olan və "Putin planı" adlandırılan nizamlama variantına dair məsələləri müzakirə eləməklə ilgili ola bilərdi.

Nəhayət, üçüncü motiv kimi, Ərdoğan-Putin görüşü və son vaxtlar Ankara-Moskva münasibətlərində başlayan istiləşmədən dolayı Ermənistanın əndişəsini azaltmaq istəyini qeyd eləmək olar. Hər necə olmasa, müttəfiq Rusiyanın iki gündə iki türk respublikasının liderləri ilə bir araya gəlməsi işğalçı ölkənin təlaşını artıra, erməni cəmiyyətində anti-Rusiya ovqatını gücləndirə bilər.

Kəsəsi, balans görüntüsü yaratmaq istəyi. Bu xüsusda Moskvada Sərkisyanın 200 milyon dollarlıq kredit silah söhbətini salması tamamilə mümkün görünür. Bakıda yeni silah müqavilələri imzalanarsa, o zaman mümkündür ki, kredit qarşılığında İrəvana silah verilməsi məsələsi də sürətlənsin.

*****

**"Avqustun 10-da Putin-Sərkisyan görüşündə müzakirə mövzusu olacaq həlledici məsələ Qarabağ nizamlanması, həmçinin, Moskvanın Ermənistanda daxili sabitliyin təmin edilməsində göstərə biləcəyi kömək olacaq".** Bu barədə rusiyalı tanınmış politoloq, Siyasi Tədqiqatlar İnstitutunun direktoru, prezident **Putinin danışmanlarından biri olan Sergey Markov** "Vestnik kavkaza" nəşrinə qarşıdakı görüşlə bağlı gözləntiləri şərh edərkən deyib.

Onun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin həlli indi yekun sıçrayışa olduqca yaxındır. **"Bu, artıq cari ildə baş tuta bilər. Sıçrayış "Kazan formulu" adlandırılan həll formulu əsasında mümkündür - hansı plana görə ki, Dağlıq Qarabağ ətrafındakı 7 rayonun qaytarılması qarşılığında Azərbaycan tərəfdən Ermənistanın blokadası götürülür. Həmin bu "Kazan formulu" əsasında artıq indidən ciddi anlaşmaya çıxmaq olar"** - politoloq qeyd edib.

Ekspertin fikrincə, Putin-Sərkisyan görüşündə başqa bir mövzu son ay ərzində Ermənistanda müşahidə edilən daxili siyasi vəziyyətin qarışması ilə əlaqəli ola bilər. **"Yəqin Vladimir Putin Ermənistanda nə baş verdiyi barədə Sərkisyanın öz dilindən eşitmək istəyir"** - Markov vurğulayıb.

**"Mən düşünürəm ki, indi Rusiya ilə Ermənistan arasında, hər halda, müttəfiqlik əlaqələri var. Hər iki ölkə KTMT-yə daxildir, Ermənistan Avrasiya İqtisadi Birliyinə qoşulmaq prosesinə başlayıb. Rusiya Ermənistana kömək edir, bu ölkədə siyasi və iqtisad sabitliyə görə cavabdehlik daşıyır. Ermənistan isə buna cavab olaraq Rusiyanın lider mövqe tutduğu təşkilatlarda iştirak edir. Əlbəttə ki, Moskva ən əvvəl Ermənistanın təhlükəsizliyinin, onu iqtisadi inkişafının donorudur"** - sonda Putinin müşaviri əlavə edib.

*****

Qeyd olunanlardan və ehtimallardan belə bir qənaət hasil olur ki, bu dəfə Serj Sərkisyanı Moskvada 3 «muncuq» gözləyir. Onlardan biri əlbəttə ki, Qarabağa görədir.

❑ **Analitik xidmət**



## Ərdoğandan böyük jest: "Azərbaycan bizim ailəmizin üzvüdür..."

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan birja başçıları ilə keçirilən konfransda iştirak edib. Axar.az xəbər verir ki, prezident sarayında baş tutan görüşdə Ərdoğan 15 iyul dövlət çevrilişinə cəhdlə bağlı fikirlərini bölüşüb:**

"Bunlar Allahın adından istifadə edərək milləti aldatdılar. İndi hər şey aydınlaşır. Hələ ki nöqtəni qoymamışıq. Bu, bir vergüldür, davam edəcəyik. Bütün milləti demokratiya mitinqinə çağırıram. Başçalının gələcəyi xəbərini aldıq, sağ olsun. Kılıçdaroğlunu da orda görmək istəyirəm. İndi də deyirlər 14 avqustu gözləyin. Biz namərd deyilik, mərdik, mərd. Pensilvaniyadakı şarlatana inanır, dünyaları ilə birgə axirətlərini də məhv edirlər. Bizə şah damarımızdan da yaxın olan təkcə Allahdır. Dedim, aksiyaya Türkiyə bayrağından başqa bir bayraq da gətirilməsin. Yəni tədbirdə dövlət bayrağımızdan kənar partiya, həmkarlar təşkilatları və s. heç bir bayrağın olmasını istəmirik. Ancaq Şimali Kipr Türk Respublikası və Azərbaycan bayrağı dalğalana bilər. Azərbaycan bizim ailəmizin üzvüdür".

YENİ MÜSAVAT
N 170 (6491) 5 avqust 2016



# “Hakimiyyətə məhəl qoymamaq, onun yox edilməsi üçün kifayət deyil”

## Erməni politoloqlar Ermənistanın düşdüyü miskin vəziyyətə görə Rusiyanı, Sərkisyanı və cəmiyyəti ittiham edirlər; Ermənistan KİV-lərinin 3 düşməni var: Rusiya, Sərkisyan və cəmiyyət....

**Ermənistan mətbuatını izləsək adama elə gəlir ki, qonşuda əsl vətəndaş müharibəsi gedir. Sanki İrəvanı hansısa xarici qüvvə işğal edib, indi onun azad edilməsi uğrunda savaş başlayıb.**

Erməni jurnalistləri olduqca aqressivdir. Mətbuat üçün «Sasna tsrer» təşkilatı Arkadiy Qaydarın “Timur və onun komandası”dır. Jirayr Səfilyan isə ölkənin yeni milli lideridir.

Maraqlıdır ki, erməni KİV-lərinin bu coşğusu ictimaiyyətin aşağı təbəqələrinə o qədər də sirayət etməyib. İctimaiyyət olub-bitənləri sükutla izləyir.

Hazırda Ermənistan KİV-lərinin 3 düşməni var: Rusiya, Sərkisyan və cəmiyyət. O cəmiyyət ki, erməni jurnalistlərinin fikrincə, silahlı qiyama lazımi dəstək verməyib, bundan istifadə edərək Sərkisyanı devirməyib.

Məsələn, erməni yazar Romella Mnatsakanyan bir erməni saytında “Dante və bizim reallıqlar” adlı məqaləsini Dantenin “cəhənnəmin dərin yerləri böyük mənəvi sınaqlar zamanı bitərəflik saxlayanlar üçündür” sitatı ilə başlayıb.

Məqalə müəllifi erməni publisisti Ara Nedolyanın “Serj Sərkisyan və erməni cəmiyyətinin bir-birindən fərqli, tamamilə iki ayrı faktor olduğunu nəzərə alsaq, Serj Sərkisyanın cəmiyyət üzərində qələbə qazandığını demək olar”, barədə fikri ilə də razılaşdığını yazır.

“Bizim hakimiyyətin antixalq xarakteri açıq aşkar, tibbi faktdır. Orqanizmin hamısını xilas etmək üçün bizim bu günümüzü zəhərləyən, gələcəyimizə isə təhdid yaradan bütün oliqarxik-kriminal klanı kəsərək amputasiya həyata keçirmək lazımdır. Lakin bu missiyanı bir neçə çılğınlaşmış adam deyil, bütün xalq gerçəkləşdirməlidir. Yalnız mübarizənin kütləviliyi tiran rejimi üzərində xalqa qalib gəlmə şansı verə bilər. Əgər bu cür kütləvilik yoxdursa, o zaman mütləq əksəriyyət gələcəkdə də başlarına açılacaq oyunlara razı gəlməyə məcbur olacaq”.

“Bu cəhətdən ”1-ci İnformasiya agentliyi"nin irəvanlılar arasında keçirdiyi sorğu göstərici xarakter daşıyır. Sorğu nəticəsində məlum olub ki, vətəndaşların bir hissəsi Ermənistan prezidentinin son çıxışı zamanı onun nə dediyinə qulaq asmaq istəməyib. Bu, əslində özü-özlüyündə yaxşı əlamətdi. Lakin hakimiyyətə susqun şəkildə məhəl qoymamaq, onun yox edilməsi üçün kifayət deyil.

**Erməni yazar yuxarıda deyilənlərə əlavə olaraq öz hakimiyyətini və ona qahmar çıxan vətəndaşları təhqir etməkdən çəkinmir:** “Özümü hər hansı bir mədəni çərçivəyə salmadan deyirəm ki, əgər yanınızda bu qədər çirkab yığını varsa, o zaman ondan gələn qoxunu iyləməmək cəhdlərinin mənası yoxdur. Çirkab onu təmizləyənə qədər üfunət verməyə davam edəcək. Bu çirkabın yanından ötüb keçmək də olar. Lakin bütün ölkədə bunu həyata keçirmək, sadəcə, mümkün deyil, elə ona görə də onu götürüb atmaq lazımdır”.



“Lakin bizim faciəmiz də elə budur ki, bu çirkabı heç kim götürüb atmaq istəmir. Əksəriyyət, sadəcə, onun iylənməsinə qarşı çıxır. Elə son sorğu da bunu göstərir”, deyə yazar məqaləsində yazır.

**Romella Mnatskanyanın fikrincə, son hadisələrdə etirazların kütləvi xarakter almaması Sərkisyan rejimini xilas edib:**

“Hər kəs bilir ki, bizdə müxalifət faktiki olaraq mövcud deyil, onu çoxdan alıblar. Müxalifət yalnız daha yaxşı pul almaq üçün hakimiyyətlə alver etməyə can atır. Lakin bu, vətəndaşların davranışına haqq qazandırırmı? Tam əksinə, onların mövqeyinin nə qədər riyakar və qorxaq olduğunu göstərir ... Hələ səbr edin, sonda böyük Dantenin bitərəfliyini qoruyanları nə gözlədiyi haqda dediyi sözləri xatırlatmaq istərdim”, deyə erməni yazar məqaləsini bu cümlələrə sonlandırır ...

**Ermənistanın, erməni xalqının düşdüyü acınacaqlı vəziyyət digər erməni yazar İqor Muradyanın “NATO-nun KTMT ilə bağlı siyasəti” məqaləsində də təsvir olunur.**

**Muradyan ölkəsinin düşdüyü bu vəziyyətdə Rusiyanı əsas günahkar elan etməyi də unutmayıb:** “Uzun müddətdən sonra, Qərbdə anladılar ki, vassal ölkələri Rusiyadan ayırmaq lazımdır. Burada Rusiyanın vassalı sayılan dövlətdə kimin hakimiyyətdə olması önəmli deyil, təki Rusiyanın tərkib hissəsində olmasınlar. Ermənistan isə Qərbdə ayaqyolu quyusuna atılan zibil yeşiyi kimi qəbul olunur. Yalnız bu vəziyyətdə onun üzərində iş apara biləcəklər. Ermənistanın siyasi rəhbərliyi və elitası isə Qərb tərəfindən tamamilə fəaliyyət qabiliyyəti olmayan, siyasətdən başqa bir çox nöqteyi - nəzərdən tör-töküntü kimi təsvir olunur.

“Ermənistan iki dəfə sübut edib ki, o, suveren dövlət deyil. İlk olaraq 2013-cü il sentyabrın 3-də Avrasiya İqtisadi Birliyinə qoşulmaqla, ikinci dəfə isə Rusiya ilə Vahid Hava Hücumundan müdafiə sisteminin qurulması barədə saziş imzalamaqla. Bundan sonra NATO Ermənistana başqa gözlə baxan deyil”...

“Ermənistanın siyasi hakimiyyəti bir qrup marionetdən başqa bir şey deyil. Bu səbəbdən NATO Ermənistanı özünün son günlərini yaşayan Rusiyadan onun öz əli ilə ayırmaq istəyir.

KTMT hərbi təşkilat kimi mövcud deyil, ola da bilməz. Bu rus xəstə təfəkkürünün məhsuludur", deyə, Muradyan yazıb.

Ermənilərİ ən çox yandıran hadisələrdən biri də Jirinovskinin Ermənistan dövləti haqqında söylədikləridir.

Ermənistan hakimiyyəti məsələ ilə bağlı səfirlik səviyyəsində Rusiya Xarici İşlər Nazirliyinə etiraz etməklə kifayətlənib. Ermənistanın Rusiyadakı səfiri Oleq Yesayan isə Jirinovskinin müxtəlif məsələlər barəsində absurd və qeyri-ciddi fikirlər söyləyən adam olduğunu bildirib.

Erməni mətbuatı hakimiyyəti Rusiyaya qarşı sərt mövqe qoymamaqda ittiham edib. Onların fikrincə, Jirinovski qeyri-ciddi kimi görünən sözləri ilə əslində Rusiyanın rəsmi mövqeyini ifadə edir.

Bundan başqa, Putinin avqustun 9-da Sərkisyanla görüş ərəfəsində Bakıya gəlməsi onları xüsusilə dilxor edib.

“Əgər İlham Əliyevlə Vladimir Putin razılığa gələ bilsələr, çətin ki, 200 milyonluq silahı ala bilək”, deyə Akop Badalyan yazır.

Hər halda, ermənilər məhz Rusiyanın sayəsində 20 ildən çox bir müddətdə Azərbaycan torpaqlarını işğal altında saxlaya bildiyini unudur.

Hər halda, Vladimir Jirinovski də “Əgər Gümrüdəki baza olmasa ayağımıza düşüb geri gəlməyimiz üçün yalvararlar. Bu baza onların xilasıdır, yoxsa türklər və azərbaycanlılar onları iki tərəfdən əzərlər”, deyərkən bunu nəzərdə tutub.

❑ Vaqif HÜSEYN



# YAP rəsmisinin “növbədənkənar seçki olmayacaq” açıqlamasına müxalifətdən reaksiya gəldi

## “Erkən seçkilərin olub-olmayacağı referendumdan az sonra dəqiq bilinəcək...”

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov “Yeni Müsavat”a müsahibəsində referendumdan sonra növbədənkənar parlament və prezident seçkilərinin keçirilə biləcəyi barədə iddiaların xülya olduğunu bildirib.**

YAP rəsmisi qeyd edib ki, növbədənkənar seçkilərin keçirilməsi konstitusiyada əvvəl də var idi, indi də var. Seçkilər isə azad və demokratik şəkildə keçirilib. Növbədənkənar seçkilərlə bağlı deyilənlərsə kimlərisə şirnikləndirmək üçün ortaya atılan xülyadır: “Prezident də seçilib, parlament də və onların öz müddəti var, bu müddət də başa çatmalıdır”.

Qeyd edək ki, buna kimi həm müxalif düşərgədən, həm də iqtidara yaxın düşərgədən referendumdan sonra erkən seçkilərin keçirilə biləcəyi barədə açıqlamalar səslənmişdi. Hakim partiyanın əsas fiqurlarından sayılan Siyavuş Novruzovun növbədənkənar seçkilər keçirilməyəcəyini qəti şəkildə bildirməsinə müxalifət düşərgəsinin necə yanaşdığına gəlincə, **AXP sədri Pənah Hüseyn** bildirdi ki, növbədənkənar seçkilərin keçirilməyəcəyi və ya keçiriləcəyi barədə deyilənlər ehtimallardır: “Növbədənkənar parlament və ya prezident seçkilərinin olacağı barədə heç kim indiyə qədər konkret birmənalı fikir söyləməyib. Ehtimal olaraq fikirlər ifadə olunub. Belə ehtimallar kimin nə deməsindən asılı olmayaraq yenə də qalır. Növbədənkənar seçkilərin olub-olmayacağını isə referendumdan bir az sonra dəqiq biləcəyik. İndidən kimsə deyirsə ki, olacaq, kimsə deyirsə ki, olmayacaq, bu fikirlərin özü də fərziyyədir”.

**VİP sədri Əli Əliyev isə növbədənkənar seçkilərin keçirilməsinə inamının olmadığını bundan əvvəl də “Yeni Müsavat”a açıqlamasında dediyini xatırladtı:** “Konstitusiyaya edilən dəyişikliklər hakimiyyətin idarəçiliyə münasibətini ortaya qoyur. Referendum müddəalarının hər biri iqtidarı qoruyub saxlamağa, onu sürəkli etməyə yönəlib. Elə isə yeni seçkilərin nə aktuallığı qalır? Dövriyyəyə buraxılan yeni seçkilər barədə ehtimal müxalifətin ”intizama" dəvətidir. Guya keçiriləcək növbədənkənar parlament seçkilərində yer verməyə bilərlər. Bu antireferendum kampaniyasına qoşulmamaq üçün polittexnoloqların düşünüb tapdığı tezis, müxalifətə “ağıllı” olmaq təklifi idi. Təşəbbüs qruplarının yaradılması üçün son müddət başa çatdıqdan sonra bəlli oldu ki, cəmi bir müxalif partiya təşəbbüs qrupu yaratdı, görünür, bu tezisə ehtiyac qalmayıb. Ona görə də YAP yetkilisi məlum açıqlamanı verib. Hər bir halda biz pespublikaçılıq prinsiplərini aradan qaldırmağa yönəlmiş referendum kampaniyasına qarşı fəal təbliğat aparmalıyıq. Əgər növbədənkənar seçkilər keçirilərsə, təbii ki, oraya da qatılmaq vəzifələrimizdəndir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə dedi ki, məntiq və ehtimalla bu tipli dəyişikliklərdən sonra müxtəlif ölkələrdə baş verən hadisələr və təcrübə də göstərir ki, referendumdan sonra ən azı növbədənkənar prezident seçkilərinin keçirilməsi aktual olur:** “Bu tipli təcrübələrə adətən belə olub, hakimiyyət yeni şanslar tanıyıb özünə və referendumun nəticələrindən maksimum bəhrə götürməyə çalışıb. Yəni dünyanın hər yerində belə olub. Parlamentin yenidən seçilmə ehtimalına gəlincə, bu ehtimal nəzəri baxımdan mümkündür. Amma bu, təbii ki, referendumdan sonra və prezident seçkiləri keçirilərsə, ondan sonra dünyada baş verən hadisələr və onun Azərbaycana təsirinin necə olacağından qaynaqlana bilər. Birmənalı surətdə ”keçirilməyəcək" demək bu gün yanlışdır. Təcrübə göstərir ki, keçirilə bilər. Amma birmənalı surətdə “keçiriləcək” demək də yanlış olardı".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 190(6491) 5 avqust 2016

**Bakıda və əksər bölgələrdə minlərlə vətəndaşı aldadaraq onlardan işə düzəltmək adı ilə pul alan şəxslər hakim qarşısına çıxarılır. Onlar "Azər Mühafizə" MMC və "Qala BTX" MMC adlı özəl mühafizə şirkətlərinin vəzifəli şəxsləridir.**

# Minlərlə vətəndaşı aldadıb milyonlar qazanan vəzifəli şəxslər hakim qarşısına çıxarılır

## Cinayətkar dəstənin narazı vətəndaşlardan fırıldaq yolu ilə aldığı böyük məbləğlər geri qaytarılacaqmı?

Xatırladaq ki, adıçəkilən şirkətlərin fəaliyyəti ilə bağlı ötən ilin müxtəlif aylarında paytaxt Bakı ilə yanaşı bir çox rayonlarda etiraz aksiyaları keçirilmişdi. Aksiyaların keçirilməsinə səbəb həmin şirkətlərin bölgələrdə və Bakıda vətəndaşlardan onları işə düzəltmək adı ilə pul almaları, ancaq verdikləri vədə əməl etməmələri olub.

Musavat.com-un məlumatına görə, yüzlərlə zərərçəkmiş vətəndaş ilk olaraq Bakıda, Prezident Administrasiyasının qarşısında aksiya keçiriblər. Narazı kütlə "Qala BTX" MMC-nin rəhbərliyinə işə düzəlmək üçün minimum 2-3 min manat depozit ödədiklərini bildiriblər. Onların arasında işə düzəldikdən sonra 2-3 ay maaş alanlar olduğu kimi, depoziti ödədikdən sonra ümumiyyətlə maaş almayan şəxslər də olub.

Bakıda başlayan aksiyaların davamı olaraq digər bölgələrdə-Tərtər, Bərdə, Goranboy, Ağcabədi, Mingəçevir və bir çox şəhərlərdə zərərçəkmişlər aksiyalar keçirməyə başlayıblar. Onlar ödədikləri depozitlərin qaytarılmasını, işlədikləri müddətdə onlara verilməli olan maaşların ödənilməsini tələb ediblər.

Etiraz aksiyalarından sonra prokurorluğa dəvət edilən və problemləri dinlənilən şəxslər musavat.com-a həmin şirkətlərin Bakı və bölgələr də daxil olmaqla, ümumilikdə 10 mindən çox işçisi olduğunu bildirmişdilər. Onların söylədiyinə görə, hər kəs müəyyən məbləğdə depozit qoymaqla işə düzəlib. Zərərçəkmişlər arasında 100 min manat depozit qoyanlar belə olub. Qoyulan depozitin məbləği şirkətin vəd etdiyi vəzifəyə uyğun olaraq dəyişirmiş.



Vətəndaşlardan minimum 2-3 min manat məbləğində depozit alan şirkət ilk 2-3 ay müddətində həmin şəxslərə 600-700 manat aylıq əmək haqqı verib. Etiraz aksiyaları maaşların verilməsi 3 ay gecikdikdən sonra başlayıb. Həmin vaxt məlum olub ki, minlərlə bu cür zərərçəkmiş şəxs var və onların əksəriyyəti depozit qoysalar da heç bir işlə təmin edilməyiblər.

Bir neçə gün ölkə mətbuatında gündəm mövzulardan olan bu hadisədən sonra hüquq-mühafizə orqanları hərəkətə keçib. Həmin dövrdə məsələ ilə bağlı Daxili İşlər Nazirliyi rəsmi məlumat yayaraq, "Azər Mühafizə" MMC və "Qala BTX" MMC adlı özəl mühafizə şirkətlərinin vəzifəli şəxslərinin ayrı-ayrı vətəndaşların etibarından sui-istifadə edərək onların külli miqdarda vəsaitlərini ələ keçirdiyini bildirib.

Rəsmi məlumatda qeyd edilir ki, "aparılan araşdırmalar zamanı müəyyən olunub ki, "General" MMC, daha sonra "Azər Mühafizə" MMC və "Qala BTX" MMC adlı özəl mühafizə şirkətlərinin direktoru V.Hüseynov adları çəkilən qurumların vəzifəli şəxsləri Mirabtalıb Cəfərov, Kamil Bayramov, Aydın Həsənov, Fariz Babayev və başqalarından ibarət mütəşəkkil dəstə yaradıb".

Dəstə üzvləri 2013-2014-cü illər ərzində mühafizəçi və başqa vəzifələrə qəbul olunmaları üçün ayrı-ayrı vətəndaşları aldadaraq depozitə pul qoymalarına inandırıb, sonra taladıqları vəsaitin bir qismini əmək haqqı kimi onlara qaytararaq digərlərinin də bu adla daha çox pul ödəmələrinə nail olublar. Beləliklə də həmin şəxslər paytaxtda, respublikanın digər şəhər və rayonlarında vətəndaşlara qarşı dələduzluq ediblər.

Həmin faktlar üzrə cinayət işi başlanılıb, V.Hüseynov, M. Cəfərov, K.Bayramov, A.Həsənov və F.Babayev barələrində 2015-ci ilin fevral ayında həbs-qətimkan tədbiri seçilib. Həmin şəxslər Cinayət Məcəlləsinin 178.2.1, 178.2.2 və 178.2.4-cü (dələduzluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, təkrar və xeyli miqdarda törədildikdə) maddələri ilə ittiham olunurlar.

Qeyd edək ki, adıçəkilən şəxslərin həbsindən sonra zərərçəkmişlər növbəti dəfə bir araya toplaşaraq aksiya keçirmişdilər. Onlar adıçəkilən şəxslərin həbsinin təqdirəlayiq hal olduğunu, lakin belə olan halda onlara pulların qaytarılmayacağını deyirdilər. Zərərçəkmişlər tələb edirdilər ki, şirkət rəhbərliyinin şəxsi əmlakı, şirkətə məxsus ofislər satılsın və onlara dəymiş ziyan ödənilsin.

Əldə etdiyimiz məlumata görə, adıçəkilən şəxslər həbs edildikdən sonra onların əmlakına həbs qoyulub. Lakin bu günə qədər narazı vətəndaşlardan alınan məbləğin geri qaytarılıb-qaytarılmaması haqda dəqiq məlumat yoxdur.

Yeni məlumat isə ondan ibarətdir ki, "Qala BTX" MMC adlı özəl mühafizə şirkətinin direktoru Vüqar Hüseynov və daha 23 nəfər şəxsin cinayət işinin ibtidai istintaqı artıq başa çatıb.

Ayrı-ayrı vətəndaşların etibarından sui-istifadə edərək, onların külli miqdarda vəsaitlərini dələduzluq yolu ilə ələ keçirməkdə təqsirləndirilən şəxslərin cinayət işi məhkəməyə göndərilib.

İşə yaxın günlərdə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılacaq. İlkin məlumata görə, iş üzrə mindən çox zərərçəkmiş var. Onların sayının artacağı da gözlənilir. Ümumilikdə dəymiş ziyanın miqdarının 100 milyon manatdan çox olduğu deyilir.

❑ **İlkin Muradov**

# Cahangir Hacıyev İsrail şirkətinin Beynəlxalq Bankda gizlətdiyi depoziti "əridib"

## Şirkət öz vəkillərinə əmanətin geri qaytarılması yollarını araşdırmaq və zəruri hüquqi addımlar atmaq barədə təlimat verib

**İsrailin BSD CROWN LTD şirkəti Azərbaycan Beynəlxalq Bankında 2013-cü ildə, Cahangir Hacıyevin dövründə yerləşdirdiyi 13.6 milyon dollar (faizləri ilə birlikdə) depozitin aqibəti ilə bağlı yeni sensasion bəyanat yayıb. Virtualaz.org xəbər verir ki, şirkət Beynəlxalq Bankın depoziti qaytarmaqdan imtina etdiyini bildirir.**

Xəbər verildiyi kimi, bundan əvvəl şirkət həmin depozitin qaytarılmasına dair Beynəlxalq Bankla bu ilin mayında əldə edilmiş razılaşmanın yerinə yetirilmədiyinə dair bəyanat yaymışdı. Bəyanatda deyilirdi ki, şirkət Azərbaycanda likvidlik problemini və valyuta bazarında vəziyyəti nəzərə alaraq depozitin 2017-ci ilə qədər hissə-hissə qaytarılmasına dair Beynəlxalq Bankın təklifinə razılıq verib. Razılaşmaya əsasən iyun ayında 500 min dollar həcmində ilk ödəniş edilməliydi. Lakin bank cəmi 250 min dollar ödəyib.

İndi isə BSD CROWN LTD bildirir ki, Azərbaycan Beynəlxalq Bankı həmin depozitin guya 2013-cü ildən etibarən "İsrael 18" adlı şirkətin götürdüyü kreditə görə girov kimi istifadə olunub. Həmin şirkətə isə BSD CROWN LTD şirkətinin daxil olduğu BGİ holdinqinin səhmdarları nəzarət edir.

Lakin şirkət bildirir ki, o, həmin depozitin üçüncü şirkət tərəfindən girov və bank təminatı kimi istifadə olunmasına heç vaxt razılıq verməyib. Və Azərbaycan Beynəlxalq Bankı da heç vaxt şirkətə bu haqda xəbərdarlıq etməyib. Şirkət yaranmış vəziyyətlə bağlı öz vəkillərinə əmanətin geri qaytarılması yollarını araşdırmaq və zəruri hüquqi addımlar atmaq barədə təlimat verib.

Xatırladaq ki, həmin depozitin Beynəlxalq Bankda yerləşdirilməsinin şübhəli olduğu araşdırılmışdı. BSD Crown yüzlərlə adda ərzaq məhsullarının distribütorluğunu həyata keçirən Willi Food şirkətinin səhmlərinin mülkiyyətçisidir. BSD Crown Ltd özü İsrailin BGİ investisiya şirkətinin törəmə şirkətidir.


Cahangir Hacıyev

Şirkətin nəzarət səhm paketi bu yaxınlara qədər Ukraynanın Odessa vilayətindən olan yəhudi oliqarx Aleksandr Qranovskiyə məxsus olub. Hazırda o, Ukraynada bizneslə məşğuldur.

Qranovski Ukraynanın Çerkassk vilayətində anadan olub. Bu ölkədə iri biznesmenlərdən biridir, "Focus" jurnalının sahibidir. Habelə Qranovski spirtli içkilər istehsalı, bank və hotel biznesi kimi sahələrdə çoxsaylı aktivlərə malikdir. 2007-ci ildən İsrailə investisiya yatırmağa başlayıb, 2013-cü ildə Willi Food şirkətinin nəzarət səhm paketini alıb. Daha sonra səhmlərdən mənfəət əldə edə bilmədiyi üçün satmağa qərar verib.

İsrail şirkətinin Azərbaycan bankında depozit adı altında pul gizlətdiyi səhmdarlardan birinin məhkəməyə şikayətindən sonra ictimailəşmişdi. Bu ilin yanvarında şirkətin səhmdarlarından biri Eldad Levi İsraildə məhkəməyə sorğu verərək BSD Crown-un Azərbaycan bankında 11 milyon dolları nədən yerləşdirdiyinin açıqlanmasını tələb etmişdi.Həmin vaxt söhbətin hansı bankdan getdiyi açıqlanmırdı.

Şirkətin 18 min 652 ədəd səhminə malik olan Eldad Levi səhmdar cəmiyyətlər haqda yerli qanunvericiliyə istinad edərək şirkətin müəyyən maliyyə sənədlərinin, o cümlədən Avstriya bankındakı 30 milyon dollarlıq depozit hesabına və Azərbaycandakı bank hesabındakı 11 milyon dollara dair sənədlərin açıqlanmasını tələb edib.

İddiaçı bildirib ki, bu sənədlərin açıqlanması şirkətin həmin vasaitləri qanuni əsasda yerləşdirib-yerləşdirmədiyini müəyyən etməyə kömək edəcək. İnvestor hesab edir ki, şirkət vəsaitləri xarici banklarda gizlədərək səhmdarlara dividentlərin verilməsindən yayınmaq istəyir. Şirkət isə iddiaçının ərizəsində göstərilmiş tələblərlə bağlı vəkillərin araşdırma apardığını açıqlayıb.

Ötən ilin iyulunda Qranovski BGİ holdinqinin səhmlərini yəhudi əsilli ukraynalı maqnat Qriqori Qurtovoya satıb. Qurtovoy bu ilin əvvəllərində bəyan edib ki, Qranovski BGİ-nin səhmlərinə nəzarət edəndə şirkətin vəsaitlərinin bir hissəsi Avstriya və Azərbaycan bankında depozit kimi yerləşdirilib. Daha sonra həmin vəsaitlər hansısa şirkətlərin götürdüyü kreditlərə görə bank təminatı kimi göstərilib.

Lakin Qurtovoy özü Qranovskinin biznesini "fırladan" adam kimi tanınır və İsraildə onun həmin bəyanatına inanmadılar. İsrailin Qiymətli Kağızlar İdarəsi bildirdi ki, Qurtovoy və BGİ-nin iki yüksək vəzifəli əməkdaşı "qlobal miqyasda heyrətamiz dələduzluq" əməli törədiblər. Onlar şirkətin vəsaitlərini qanunsuz yollarla xarici banklarda yerləşdirərək maliyyə hesabatından gizlədiblər. İdarə biznesmenə qarşı araşdırma başladıb və bu ilin fevralında Qurtovoy BGİ holdinqinin vəsaitlərini qanunsuz yollarla xaricə çıxarmaqda ittiham edilərək həbs olunub. Bu pul yuma əməliyyatına görə aparılan təhqiqatda əsas fiqurantlardan biri də Qranovskidir. Çünki Azərbaycan və Avstriya bankında pullar məhz onun zamanında yerləşdirilib. Söhbət Beynəlxalq Banka Cahangir Hacıyevin rəhbərlik etdiyi dövrdən gedir.

İsrailin "Haaretz" nəşrinin yazdığına görə, Qurtovoy Təl-Əvivdə məhkəməyə ifadə verməyə gedərkən saxlanılıb. Qəzet yazır ki, Qurtovoy on milyonlarla dolları qanunsuz yollarla xaricə çıxarmaqda ittiham olunur. Ona qarşı araşdırma BGİ holdinqinin səhmlərini partnyoru Qranovskidən 2015-ci ilin iyulunda alandan sonra başlayıb. Qurtovoyu girov müqabilində həbsdən buraxıblar. Ancaq İsrail Qiymətli Kağızlar İdarəsi əmindir ki, bu dələduzluq əməli hələ Qranovskinin holdinqə nəzarət etdiyi dövrdə başlayıb.



# Ermənistan hakimiyyətində "yarpaq tökümü" başladı

## Sərkisyan təklənir; Moskva onun "göz yaşları"na inancaqmı? **Politoloq:** "İstefa verən rəsmilər gələcək talelərindən qorxduqları üçün onunla eyni hakimiyyəti paylaşmaq istəmirlər..."

**Ermənistan paytaxtında 17-31 iyul tarixlərində baş verən silahlı toqquşmalardan sonra ölkədə idarəolunmaz vəziyyət yaranmaqdadır. Polis post-patrul xidməti alayını iki həftə ərzində nəzarətində saxlayan silahlı dəstənin zərərsizləşdirilməsindən sonra etirazçı kütləni küçələrdən yığışdırmağın mümkün olacağını güman edən Sərkisyan hakimiyyəti daha ciddi dirənişlə üz-üzə qalıb.**

Onsuz da aprel döyüşlərindəki sarsıdıcı zərbələrdən sonra hakimiyyətinin dayaqları ciddi şəkildə zəifləyən Ermənistan prezidenti son olayların ardınca daha ciddi sınaqlarla üz-üzə qalıb. Belə ki, dünənə qədər Serj Sərkisyanın sadiq komanda üzvləri olan məmurlar da artıq ondan üz çevirməyə başlayıb.

Avqustun 4-də Ermənistanın baş prokuroru Qevork Kostanyan istefaya gedib. APA-nın "news.am" saytına istinadən verdiyi xəbərə görə, faktı Baş Prokurorluğun mətbuat katibi Kristin Melkonyan təsdiqləyib. O bildirib ki, Q. Kostanyan səhhətində yaranan problemləri ilə bağlı istefaya gedib. Ancaq əslində istefanın səbəblərinin gizlədildiyi təxmin edilir. Baş prokuror İrəvandakı polis alayını ələ keçirmiş silahlı dəstə üzvlərinin və onların tərəfdarlarının həbsindən sonra istefaya gedib ki, bu da suallar doğurur.

Bu arada Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) İstintaq şöbəsinin rəisi Mnatsakan Maruxyan da tutduğu vəzifədən azad edilib. Bu barədə "report" "news.am" portalına istinadən xəbər verir. Qeyd olunur ki, bu qərar M.Maruxyanın təqaüdə çıxması ilə bağlıdır. Bu vəzifəyə yeni təyinat da olub. Belə ki, buna qədər Ermənistan MTX-nin İstintaq şöbəsinin rəis müavini işləyən Mikael Ambartsumyan şöbə rəisi təyin edilib. Şübhəsiz ki, Sərkisyan onun istəklərinə qarşı çıxanları da təmizləyib daha sadiqlərini iş başına gətirir. Fakt budur ki, aprel savaşında ölkəsi təklənən S.Sərkisyanın son vaxtlar özü də təklənir-erməni hakimiyyətində "yarpaq tökümü" başlayıb.

Silahlı dəstənin himayəsinə qalxan müxalifət təmsilçiləri əslində S.Sərkisyanın özünün terrorçu olduğunu iddia edib silahlıları aşkar müdafiə edir. Hətta Ermənistan parlamentarları sırasında da Sərkisyana qarşı aşkar çıxış edənlər var. Belə bir situasiyada hakimiyyət düşərgəsində də mərkəzdənqaçma meylləri güclənməkdədir. Sərkisyanın qalan il yarımlıq prezidentlik müddətini başa vura bilməyəcəyi artıq bir çoxlarına gün kimi aydındır. Ermənistan prezidentinin müxalifət, "Qarabağ müharibəsi veteranları" adlandırılan canilər və müdafiə naziri Seyran Ohanyanla üzbəüz qalması halında durumu olduqca ağırdır. Bir tərəfdən də onun aprel ayında Putini baş kansler Anjela Merkelə satması Rusiya qarşısında özünü pis vəziyyətə qoyması ilə nəticələnib. Bu mənada S.Sərkisyanın 10 avqustda Moskva səfəri zamanı Putindən əfv diləyəcəyi də gözlənilləndir. Ancaq Moskva Serjikin göz yaşlarına inanacaqmı, bax, bu, maraqlı məsələdir.

Ermənistanın hakimiyyət dairələrində tezliklə hökumətin və baş nazir Ovik Abramyanın istefası ilə bağlı şayiələr gün-gündən güclənir. Virtualaz.org xəbər verir ki, bu barədə "Aykakan Jamanak" qəzeti məlumat verib. Nəşr xatırladır ki, İrəvanda silahlı qrupun polis idarəsinin binasını ələ keçirməsindən və silahı yerə qoymasından sonra prezident Sərkisyan milli həmrəylik hökumətinin formalaşdırılması barədə bəyanat verib. "Bu, özündə hazırkı hökumətin istefasını ehtiva edə bilər. Lakin Sərkisyanın strategiyasına nəzər salsaq, belə hallarda o, kəskin dəyişikliklərə getmir, bir qədər fasilə götürür və sonradan addım atır" - məqalədə deyilir.

Belə bir situasiyada isə Ermənistan və Azərbaycan XİN başçılarının, o cümlədən prezidentlərinin görüşlərinə hazırlıq işlərinin aparıldığı barədə xəbərlər davamlı şəkildə yayılır. Bununla da həmsədrlər sanki Ermənistandakı qarışıqlıqlar fonunda Azərbaycanın durumdan istifadə edərək işğalçıya növbəti zərbələri endirə biləcəyindən ehtiyatlandığı üçün ardıcıl olaraq görüş anonsu verirlər. Lakin Sərkisyanın "canımı verərəm, Qarabağı verməərəm" sərsəmləməsinə cavab olaraq heç bir həmsədr ölkədən, yaxud ATƏT-in fəaliyyətdə olan sədrindən reaksiya gəlmədi. "ATƏT-in Minsk Qrupunun həmsədrləri Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün təşkil edilməsi imkanını nəzərdən keçirirlər". Bunu "Ria Novosti" agentliyinə ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik bildirib. C. Uorlik qeyd edib ki, davamlı sülhün əldə edilməsinin yolu danışıqlar prosesindən keçir. Onun sözlərinə görə, heç bir həll yolu hansısa tərəfə zorla qəbul etdirilə bilməz.

"Həmsədr ölkələrin yüksək səviyyəli rəsmilərinin dəstəyi ilə tərəflər danışıqlarda iştirak edir və təmas xəttində zorakılıq riskinin azaldılması tədbirləri üzərində çalışır. Sülh prosesində tam proqresə nail olmaq üçün biz Azərbaycan və Ermənistan prezidentlərinin növbəti birgə görüşünü təşkil etmək imkanını nəzərdən keçiririk", - deyə C. Uorlik qeyd edib (APA). Göründüyü kimi, amerikalı diplomat da işğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsi qoyur. Sərkisyanın cəfəng iddiasından sonra əslində danışıqların mənası da qalmır. Lakin Bakı beynəlxalq ictimaiyyət qarşısında zəif mövqeyə düşməmək üçün danışıqlardan imtina etməyə tələsmir.



**Politoloq Arzu Nağıyev hesab edir ki, görüşlərin intensivləşməsi müsbət bir haldır. Lakin onun fikrincə, qarşıdakı görüşlərdə konkretlik məsələsinə fikir verilməlidir:** "Artıq ATƏT-in Minsk Qrupu tərəfindən verilən deklorativ bəyanatların vaxtı deyil. Azərbaycan vaxt baxımından gözləmə mövqeyi seçə bilməz. Qərb də maraqlı olmalıdır ki, regionda təhlükəsizlik məsələləri həll edilsin ki, iqtisadi layihələri həyata keçirmək mümkün olsun. Bir sözlə, ilk öncə Rusiya, sonra isə digər regional dövlətlər tam məsuliyyətlə bu münaqişənin həllinə çalışmalıdırlar. Rusiya bu məsələlərdə təşəbbüsü ələ almasa və sadəcə olaraq, Ermənistanın bir tərəfdaş kimi təqdimatına çalışsa, demək olar ki, öz şanslarından da məhrum olacaq".

**Qərblə Rusiya arasında Qarabağ məsələsinə münasibətdə rəqabətin olmasına diqqət çəkən A.Nağıyev xatırlatdı ki, bir müddət bundan öncə, ABŞ da məsələnin həllində çox təşəbbüs göstərdi, lakin Rusiya bu təşəbbüsü prezidentlərin Vyana, Sankt-Peterburq görüşündən sonra ələ aldı:** "Rusiya Ermənistana təsir etmək qüvvəsinə malik olmaqla yanaşı, həm də bir sıra müqavilələrdə eyni blokdan çıxış edir. Bundan başqa, düşmən ölkənin iqtisadiyyatı Rusiyadan asılıdır. Bu baxımdan, düşünürəm ki, Rusiya prezidentinin Dağlıq Qarabağ münaqişəsinin həllinə təsiri ola bilər. Rusiya həmçinin ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biridir. Belə olan halda, onun həmsədr ölkənin prezidenti kimi mövqeyi də çox önəmlidir".

**Vəziyyətin yenidən gərginləşməsi halında yarana biləcək müharibə təhlükəsinə gəldikdə isə politoloq bunları bildirdi:** "Bütün dövlətlər dərk etməlidirlər ki, bu iki ölkə arasında olmayacaq. Azərbaycan öz ərazilərini təmizləmək üçün keçirəcəyi hər bir antiterror əməliyyatlarında bu terrorçulara dəstək olan qurumlar və dövlətlər də dolayı yolla hərbi qarşıdurmanın iştirakçılarına çevriləcəklər. Buna görə də konkret addımların atılmasının vaxtı artıq çoxdan çatıb. Əks halda, bunun ziyanını bütün region və hətta regiondan kənardakılar da çəkəcək".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə qarşıdakı görüşlərə diqqət çəkərək qeyd etdi ki, 3 gün ərzində və 3 müxtəlif yerdə Dağlıq Qarabağla bağlı fikir mübadiləsi aparılacaq:** "Ancaq təəssüf ki, müxtəlif kombinasiyalarda bu görüşlərin heç birinin münaqişənin həllinə təsiri olmayacaq. Birinci görüş avqustun 8-də Bakıda keçiriləcək. Azərbaycan, Rusiya və İran prezidentlərinin üçtərəfli görüşündə daha çox şimal-cənub nəqliyyat dəhlizindən danışılacaq. Hər 3 ölkə dəmir yolu xəttinin işə düşməsində maraqlıdır. Çox qısa müddətdə layihənin tamamlanması planlaşdırılır. Doğrudur, Azərbaycan prezidentli rusiyalı həmkarı Vladimir Putinlə ikitərəfli görüş də keçirəcək və bu görüşdə Qarabağ münaqişəsinin həlli ətrafında fikir mübadiləsi aparılacaq. Ancaq aprel ayından bu yana hadisələrin inkişafı göstərir ki, münaqişənin həllinin birinci addımı kimi Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması məqsədilə Putinin Ermənistan prezidenti Serj Sərkisyana təsir etmək fikri yoxdur. İkinci görüş Sankt-Peterburqda olacaq. Bakıdakı görüşdən bir gün sonra, yəni avqustun 9-da Putin Sankt-Peterburqda türkiyəli həmkarı Rəcəb Təyyub Ərdoğanla olacaq. Həmin görüşdə əsasən Rusiya-Türkiyə əməkdaşlığının bərpası müzakirə olunacaq. Bu, Putinlə Ərdoğanın münasibətlərin gərginləşməsindən normallaşması dövrünə keçiddən sonra ilk görüşüdür. Ona görə də liderlərin müzakirə edəsi çox mövzusu var. Bu sırada iqtisadi və ticarət əlaqələrinin bərpasından tutmuş, vizaların yenidən ortadan qaldırılması, turizm, "türk axını" və Türkiyədə nüvə elektrik mərkəzinin tikintisinə qədər mövzular var. Odur ki, Putinlə Ərdoğan Dağlıq Qarabağla bağlı çox qısa fikir mübadiləsi aparacaqlar. Halbuki Türkiyə-Rusiya yaxınlaşması Cənubi Qafqazda müsbət siyasi atmosfer yaratmalıdır".

**Politoloq xatırlatdı ki, üçüncü görüş Sankt-Peterburq görüşündən bir gün sonra reallaşacaq:** "Putin bu dəfə Moskvada Ermənistan prezidenti Serj Sərkisyanla görüşəcək. Bu görüşdə də Dağlıq Qarabağla bağlı geniş fikir mübadiləsinin aparılacağı sual doğurur. Əlbəttə, Putin Bakıda Əliyevlə görüşün təfərrüatları haqqında Sərkisyana məlumat verəcək. Ancaq Putini bu gün narahat edən Ermənistandakı vəziyyətdir. Çünki Serj Sərkisyanın Ermənistandakı mövqeləri getdikcə zəifləyir. Ermənistanın qarış bilməsi faktoru Putini narahat edir. Moskvada belə bir şübhə var ki, Ermənistanı da kənar qüvvələr, o cümlədən ABŞ qarışdırır. Ona görə də Putin Sərkisyanla Ermənistandakı vəziyyəti müzakirə edəcək. Beləliklə, 8, 9 və 10 avqust görüşlərinin əsas iştirakçısı Vladimir Putindir. Hər 3 görüşdə Dağlıq Qarabağla bağlı fikir mübadiləsi aparılsa da, bu, münaqişənin həllində ciddi irəriləyişə səbəb olmayacaq".

**İşğalçı ölkədəki istefalara toxunan E.Şahinoğlu qeyd etdi ki, Sərkisyanın vəziyyəti getdikcə ağırlaşacaq:** "İstefa verən rəsmilər gələcək talelərindən qorxduqları üçün Sərkisyanla eyni hakimiyyəti paylaşmaq istəmirlər. Yaxın günlərdə Sərkisyanın lideri olduğu partiyada da qopmalar başlayacaq. Belə vəziyyətdə, məncə, Moskva Sərkisyana əvəz axtarmaq barədə ciddi düşünür".

# Ölüm saçan həşərat: qara qurd haqda nə bilirik?

## Həşərat sancması zamanı ilk növbədə nə etmək lazımdır...

**Avqustun 1-də Şamaxıda 14 yaşlı qız evdə qara qurd sancması nəticəsində dünyasını dəyişib. 14 yaşlı Ruqiyyə güclü zəhərlənmənin yaratdığı ürək və tənəffüs çatışmazlığından vəfat edib. Ümumiyyətlə isə son 1 ayda 28 nəfəri ilan və həşərat sancıb.**



1 saylı şəhər Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri, baş toksikoloq Azər Maqsudov mətbuata açıqlamasında cari ilin iyul ayında 14 nəfərin ilan sancması, 8 nəfərin əqrəb sancması, 4 nəfərin isə hörümçək növü olan qara qurd sancması ilə bağlı onlara müraciət etdiyini bildirib.

Maraqlıdır, 14 yaşlı qızın ölümünə səbəb olan qara qurd nədir? Ondan necə qorunmaq olar? Ümumiyyətlə, həşərat sancmaları zamanı nə edək?

Mütəxəssislərə görə, qara qurd hörümçəyinin zəhəri gürzənin zəhərindən də bir neçə dəfə güclü olur. Bu hörümçək ölkəmizə Orta Asiyadan gəlib və son 10 ildə yayılmağa başlayıb. Qaraqurd hörümçəyi qabıqlı böcək cinsindən olub, bəzi yerlərdə "dozanqurdu" adlandırılır. Hörümçək o qədər balacadır ki, heç bəzən onun sancdığını da hiss etmək olmur. Bu həşəratın zəhəri neyrotoksiki olduğundan, həmin nahiyədə şiddətli ağrılar başlayır. Hətta narkotik maddələr belə o ağrıları keyləşdirə bilmir. Bu hörümçək 1,5 mm ölçüdə olur və belində 4 qırmızı nöqtə var. İlkin tibbi yardım vaxtında və keyfiyyətli yardım göstərilmədiyi halda qaraqurd sancması öldürücü olur.

Ümumiyyətlə əgər sizi hansısa həşərat sancıbsa çox böyük bir allergiyanız yoxdursa, demək ki, o həşərat sancması çoxda təhlükəli deyil. Həşərat sancan bölgədə şişmə, qızartı, qaşıntı, kolik şəklində qarın ağrısı, qusma, sinədə sıxılma hissi, nəfəs almada çətinlik, halsızlıq, xırıltılı tənəffüs, at səsi (larinks şişi tapıntısı), dildə şişmə də ola bilər. Bu simptomlar ciddi allergik reaksiya olduğunu göstərir . Nəbzin alına bilməməsi və qan təzyiqinin düşməsi, şüur bulanıqlığı və ürək dayanması həyatı təhdid edən tapıntılardır.

Həşərat sancmalarında ilkin tibbi yardım da müxtəlifdir:

**Arı sancması:** əgər sizi arı sancıbsa, arının iynəsini steril bir iynə ilə çıxartmaq lazımdır. İynə çıxarıldıqdan sonra buz tətbiq edilə bilər.

**Əqrəb sancması:** zəhərin gücü əqrəbin quyruğundakı boğuq sayı ilə düz mütənasibdir. Zəhər sinir sisteminə və ürəyə təsir edir. Ağız suyu ifrazatı artır. Əzələlər sıxılır. Sidik qaçırma və iflic görülə bilər. Sancılan bölgədə ağrı, yanma və keylik olur. Bu vəziyyətdə yara qətiliklə sorulmaz. Ammonyak tətbiq edilir. Adama spirt verilməməli və yara bağlanmamalıdır.

**İlan sancması:** yarada diş izi izlənir. Zəhərli ilanlar qısa, quyruqları yumru və başları üçbucaq şəklində olanlardır. Üzərindəki pullar daha kiçik və daha çoxdur. Çox parlaq və canlı rənglərdə olurlar. Dişləmə zamanı qan laxtalanmasında çətinlik olar, həddindən artıq qan itkisi olar. Yanma hissi və ağrı var. Şişlik və bənövşəyilik müşahidə oluna bilər. Zəhər sinir sisteminə və ürəyə təsir edir. Qusma, mürgüləmə və ürək bulanma mümkündür. Dişlənilən bölgənin üstü bir parça ilə bağlanılmalıdır.

Həşərat sancmaları zamanı ilkin tibbi yardım zərərçəkəndə baş verən reaksiyalara uyğun olaraq aparılmalıdır. Lokal reaksiya - həşəratın sancdığı yerdə kiçik bir şişlik varsa, buzla kompres etmək, sabunlu su ilə yumaq kifayətdir.

**Ümumi reaksiya** - əgər sancılan bölgənin ətrafında daha geniş bir reaksiya meydana gəlsə *(məsələn, bütün qolun və ya qıçın şişməsi kimi)* ya da qaşıntı görülsə, yenə normal reaksiyadaki müalicə tətbiq oluna bilər. Ağızdan qəbul edilən bəzi dərmanlar da şikayətləri qaldıra bilər. Ancaq bu dərmanları həkimin verməsi lazımdır.

**Toksik reaksiya** - sancılan bölgədən şişmə, qarın ağrısı, halsızlıq, nəfəs alma çətinliyi, sinədə sıxışma hissi, xırıltılı tənəffüs, dildə şişmə bir neçə dəqiqə içində ortaya çıxan ciddi allergik reaksiyadır. Şüur bulanıqlığı və ürək dayanması həyatı təhdid edir. Bu vəziyyətdə bir sağlamlıq mərkəzində təcili müayinə aparılmalıdır. Müalicə sonrasında isə qan analizi və uyğun testlərlə allergiya təsdiqlənməlidir. Riskli şəxslər peyvənd olunmalıdır.

Arı sancmasına qarşı həddindən artıq həssaslığı olan kəslərin yanında mütləq həkimin verdiyi dərmanlar olmalıdır.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla təcili həkimə müraciət etmək lazım olduğunu dedi:** "İnsanı sancan həşəratın adı dəqiq bilinməlidir. Bəzən evə əqrəblər, ilanlar belə daxil ola bilir. Bütün balaca həşəratları insanlar qurd adlandırır. Bu cür sancmalar zamanı zərərçəkəni yaxınlıqdakı həkim məntəqələrinə çatdırmaq lazımdır. Xəstə panikaya düşməməli, çox hərəkət etməməlidir ki, zəhər bədənə tam yayılmasın, qan dövranı stimullaşmasın. Bir də sancan yerdən yuxarı qoyulmalıdır ki, qan cərəyanı ilə zəhər mümkün qədər ətrafa yayılmasın. Bundan sonra həkim yardımı çağırmaq lazımdır".

❑ **Günel MANAFLI**



# Bakıda şok olay: ana 15 yaşlı qızını öldürdü

**Bakıda ana qızını öldürüb. Lent.az-ın məlumatına görə, hadisə Sabunçu qəsəbəsində baş verib. Qəsəbə sakini, 1981-ci il təvəllüdlü Züleyxa Cəfərova qızı, 2001-ci il təvəllüdlü Elfanə Cəfərovanı boğub öldürüb. Z. Cəfərova saxlanılıb.**

İlkin araşdırma zamanı məlum olub ki, ana və 15 yaşlı qızının münasibətləri bir müddət imiş pozulubmuş. Qızının hərəkətlərindən narahat olan Z. Cəfərova ona bir neçə dəfə xəbərdarlıq edib. Nəhayət, dünən əsəblərinə hakim ola bilməyən 35 yaşlı qadın 15 yaşlı qızını boğaraq öldürüb.

Qeyd edək ki, ailə başçısı hazırda həbsxanadadır.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




YENİ MÜSAVAT
N 170 (6491) 5 avqust 2016

# Ərəb turistlər barədə bilməli olduğumuz ən önəmli detallar

## 30 nəfərlik turist ərəb ailəsi, lüks həvəskarları və həftəlik 30-40 min avro xərc; onları aldatmağa cəhd etməyin, çünki...

**Bu günlərdə Bakı şəhərinin mərkəzi ərəb turistlərin “işğalındadır”. Başı çadralı, ağ əmmaməli, qəbilələr kimi toplu halda gəzən turist ailələri diqqəti cəlb edir. “Yeni Müsavat” isə sizə onların ən xarakter cəhətlərini və bilinməyən tərəflərini tanıdacaq. Məlum, Türkiyə ərəb turistlər məsələsində bizdən qat-qat təcrübəlidir. Bu səbəbdən də Türkiyə saytlarında onlara bələd olmanın detalları barədə maraqlı məlumatlar var.**

Öncə rəqəmlər barədə. Son iqtisadi proseslər fonunda Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) olan turistlər nisbətən aşağı büdcəli marşrutlar seçməyə başlayıb. APA-nın xəbərinə görə, bu barədə yerli turizm şirkətləri məlumat verib. “Artıq BƏƏ-dən olan turistlər məzuniyyətini dəniz kənarında keçirmək niyyətində deyil. Onlar indiyədək olmadıqları ölkələri və şəhərləri kəşf etmək istəyirlər. Daha çox Sinqapur, Tailand, Malayziya, Maldiv adaları, Azərbaycan, Gürcüstan kimi ölkələr populyardır”, - deyə turizm şirkətlərindən birinin rəhbəri bildirib.

Aşağı büdcəli marşrutlar arasında Azərbaycan və Gürcüstan göstərilib. Bildirilir ki, Azərbaycanda istirahət ərəblərə 490 dollara, Gürcüstanda isə 430 dollara başa gələcək. Rusiya BƏƏ-dən olan turistlər üçün büdcə baxımından sərfəli ölkələr siyahısında birincidir. Qeyd olunub ki, Rusiyaya birbaşa aviareys 328-410 dollar arası dəyişir və bu ölkənin hotellərində 3 gecə qonaqlama ərəb turistlər üçün ortalama 320,5 dollara başa gəlir.

Ümumilikdə isə ərəb turistlər üçün ən yaxşı səyahət fürsətləri olan ölkələrin siyahısında Gürcüstan, Azərbaycan, Hindistan və Şri-Lanka ilk beşliyə daxildir.

**Türkiyədə ərəb turistlər yerlilərdən fərqlənmir, Bakıda isə...**

Bundan başqa, onlar Bakıda mənzil bazarında da fəaldırlar. Daha çox şəhərin mərkəzindəki mənzillərlə maraqlanırlar. Ümumilikdə isə Azərbaycan qanunvericiliyində xarici vətəndaşların burada mənzil almasına heç bir məhdudiyyət yoxdur. Onlar çoxmənzilli binalardan mənzil ala bilərlər. Daha bir detal. Türkiyədə ərəb turistləri yerlilərdən ayırmaq olduqca çətindir. Çünki xüsusən qadınlar arasında onlar kimi geyinənlər çoxdur. İstanbulun gəzməli yerlərində yerli əhali ilə ərəblər arasındakı fərqi tapmaq üçün diqqətli müşahidəçi olmaq lazımdır. Azərbaycanda, Bakının küçələrində isə bu, dərhal nəzərə çarpır. Çünki Bakı ultra Avropa şəhərini xatırladır.

**Bir həftə ərzində 70-80 min avro xərcləyən ərəb ailələri**

Yaxşı, bəs nədir bu ərəb turistlərin xarakter cəhətləri? Ərəb turistlər əsasən ailəlikcə, qələbəlik qruplar halında gəlir. Bir ailə bəzən 30 nəfər olaraq gəlir. Elə varlı ailələr var ki, bir həftə ərzində 70-80 min avro xərcləyib öz ölkəsinə qayıdır. Gələn varlı ərəb turistlər aeroportdan özəl lüks maşınlarla götürülür. Amma cəmiyyətin və ticarətçilərin də ərəblərə baxışı dəyişməlidir. Gələn turistə dərisinin rənginə, irqinə, milliyyətinə baxmadan, qüruru ilə oynamadan xidmət göstərmək lazımdır.

Ümumilikdə isə ərəb turistlər tək və homogen bir qrup deyil. Körfəz ölkələrindən gələnlər Liviya, Fələstin kimi ölkələrdən gələnlər, eləcə də Cənubi Afrikadan gələnlər olmaq üzrə 3 kateqoriyaya ayrılırlar. Körfəz ölkələrindən gələnlər yad ölkələrdə özlərini olduqca rahat hiss edirlər. Tarixi abidələrlə, muzeylərlə maraqlanan ərəb turistlərin sayı azdır. Onların böyük əksəriyyəti komforta düşkündülər. Dəniz mənzərəli restoranlarda yemək yemək, hər cür şəraitli hotellərdə gecələmək onlar üçün önəmlidir. Və bu mənada heç vaxt pul əsirgəmirlər.

Səudiyyə Ərəbistanı, Qətər, Küveyt kimi ölkələrdən gələnlər daha mühafizəkardılar. Həyat yoldaşlarının və ya qızlarının yad kişilərlə danışmasını istəmirlər. Tarixlə çox maraqlanmırlar, daha çox alış-veriş mərkəzlərinə getmək istəyirlər. Fastfood-u çox sevirlər.

Tunis, Fas, Əl-Cəzirə kimi ölkələrdən gələnlərin üzərində isə ərəb mədəniyyəti ilə yanaşı, Fransız mədəniyyətinin də izləri var. Dolayısı ilə də tələbləri buna uyğun olur. Daha çox ekzotika ilə maraqlanır, ölkənin mədəniyyətinə maraq göstərirlər.

Başqa bir detal. Ümumilikdə ərəb turistlərin pullu avam, korafəhm olması ilə bağlı yanlış təsəvvür formalaşıb. Bir çox işbazlar elə düşünür ki, onların pulu çoxdursa, asanlıqla aldatmaq, “qapazlamaq”, 5 manatlıq əşyanı 25 manata onlara satmaq olar. Amma təcrübə göstərir ki, ümumən ərəblər təcrübəli turist olduqlarından bu sahədə yetərincə məlumatlıdırlar. Artıq 5-10 il əvvəlki ilə müqayisədə onları nə taksi sürücüləri, nə də mağaza satıcıları aldada bilir. O mənada... heç bizimkilər də buna cəhd etməsin.

**Rus turist deyib keçməyin, olduqları ölkədə dominantlıq edirlər**

Amma hesab edək ki, ölkəmizə ancaq ərəblər gəlmir. Çünki bu aralar rus turist sarıdan da yarımış sayılırıq. Bəs onları necə tanıyaq, onlarla necə davranaq?



**Ruslar**

**Təyinedici xüsusiyyətləri:** qadınlar daha çox qüsursuz bədən quruluşu, kişilər isə içkiyə meyllilikləri ilə diqqət çəkirlər. Heç bir kompleksləri yoxdur. Qızlar çox rahat şəkildə dostluğa meyl edir. Ailəli turistlər isə uşaqlarına xüsusi önəm verir. Təriflənməyə dəyər vərdişləri: yeməklə bağlı xüsusi kaprizləri olmur. Daha çox öyrənməyə, yeni dadları, yerləri kəşf etməyə maraqlıdılar.

**Qüsurları:** başqa turistləri, xüsusən də qeyri-avropalıları aşağılama meyli güclü hiss olunur. Getdikləri yerdə dominantlığa meyl etmələri, bəzən yersiz insident yaratmaları bundandır. Ara-sıra şəhərdə gözümüzə dəyən digər xarici turistlərin özəlliklərini də yaddan çıxarmayaq və bəzi əcnəbi turistlərin xarakter cəhətlərini yada salaq.

**İngilislər**

**Təyinedici turist xüsusiyyətləri:** qırmızı rəng. Öz ölkələrində Günəş işığına həsrət olduqları üçün, getdikləri yerlərdə özlərini ən güclü Günəş şüalarına əmanət edirlər. Təriflənməyə dəyər davranışları: bir pivəyə qonaq etsəniz, hətta bunu təklif kimi səsləndirsəz, ömür boyu yoldaşınız ola bilərlər. Qüsurları: ingilislər üçün spirt və tətil bir bütündür. Yerli dili bilmədikləri üçün ingiliscə yüksək səslə danışarlar.

**İtalyanlar**

**Təyinedici xüsusiyyətləri:** italyanların marka sevgisi onları xaricdə də tək buraxmır. Qollarında Gucci çantalar və yüksək dikdaban ayaqqabılarla “Machu Picchu”yu axtaran birini görsəniz, bilin ki, o, italyandır. **Təriflənməyə dəyər vərdişlər:** mövzu italyanlarsa, ətrafda yaxşı qəhvə tapa bilərsiniz. Ayrıca restoranda qarşı masanızda sizdən daha çox əylənən bir qrup varsa, onlar italyanlardır.

**Qüsurları:** çox israrçıdırlar və yoldaşlarının düşüncələrinə əhəmiyyət vermirlər. Bundan başqa, turist kimi ərköyünlükləri də xeyli bezdiricidir.

**Amerikanlar**

**Təyinedici xüsusiyyəti:** çempionata qatılmağı bacara bilməyən professional golfçular kimi geyinirlər.

**Vərdişləri:** yüksək səslə danışıb davamlı etiraz edirlər. Amma yenə də dünyanın ən açıq fikirli və mədəni fərqliliklərinə hörmət edən insanlarıdır. Bəxşiş verməkdə isə əvəzsizdilər. Hətta o qədər ki, üzünə baxdığınız üçün belə bəxşiş ala bilərsiniz. **Qüsurları:** onlara elə gəlir ki, amerikalı olmaq “hər şeyi edə bilərəm” mənasını verir.

**Almanlar**

**Təyinedici xüsusiyyəti:** sarı saçları, pivədən yaranan şiş göbəyə heyranlıqları və atletik görünmə səyi. **Təriflənməyə dəyər vərdişləri:** almanlar açıq havanı çox sevərlər və özlərini Avropa çimərliklərindən daha uzağa aparacaq mədəniyyətlərə qarşı maraq duyarlar. Ağıllı, hörmətli və yoldaş sevəndilər. Nə qədər çox içsələr də, bunun öhdəsindən gələ biləcək bədənləri var. İçib özünü itirənlərdən deyillər. **Qüsurları:** hədsiz dərəcədə xırdaçıdırlar.

❑ **Sevinc TELMANQIZI**



Rəşad Həsənov

# Turistləri heyran qoyan paytaxtın yerli sakinləri niyə xoşbəxt deyil?

## Ekspert bunu ən əvvəl iqtisadi amillərlə bağlayır

**Bakı sakinlərindən fərqli olaraq xarici turistlər bu qədim cənub şəhərinə heyranlıqlarını gizlətmirlər. Əllərindəki fotoaparatla az qala hər bir daşın, hər bir döngənin fotolarını çəkir, bir binaya dəqiqələrlə tamaşa edirlər. Bakının kafe və restoranlarında zövqlə əylənir, buranın çox gözəl şəhər olduğunu dilə gətirməkdən çəkinmirlər.**

Xüsusən son vaxtlar sayları artan ərəb turistlər Bakının havasını cənnət hesab edirlər. Bəs görəsən, turistlərin gözünü oxşayan Bakını yerli sakinləri niyə o qədər bəyənmir, hər addımda tənqid edirlər? Ərəbləri heyran qoyan şəhərdə biz niyə xoşbəxt deyilik? İqtisadçı ekspert Rəşad Həsənovun bu suala özünəməxsus yanaşması var.

Onun fikrincə, səbəblərdən biri Azərbaycan manatının dəyərdən düşməsindən sonra turizm xidmətlərinin xaricilər üçün ucuzlaşmasıdır. Digər səbəbləri isə o, belə sıraladı: “Bizim İslam dini ilə bağlı ərəb ölkələri ilə müəyyən yaxınlığımız var. Ərəblərin Azərbaycanda istirahət etməyə meyl etməsinin əsas səbəblərindən biri də ölkəmizdə İslam və Qərb mədəniyyətlərinin paralel olaraq mövcud olmasıdır. Bu da onların Azərbaycana meyl etməsinə təkan verir. Ölkəmizdə Qərb mədəniyyətinə məxsus istirahət və əyləncə məkanları da var. Onların bir çoxu ərəb ölkələrində faktiki olaraq qadağandır. Eyni zamanda Azərbaycan həm də bir İslam ölkəsidir və müsəlman adət-ənənələri, ibadət və sair insanlar tərəfindən heç bir halda pis qarşılanmır, diskriminasiya ilə üzləşmir. Ona görə də insanlar özlərini rahat hiss edə bilirlər. Azərbaycanda pulun varsa, istədiyin cür əylənə, istirahət edə bilərsən, bəzi hallarda isə qanunların belə üzərindən keçmək olur. Bu isə qayda-qanunlara, sivil davranışlara yiyələnməmiş ərəb üçün rahat şərait hesab olunur. O baxımdan onlar Bakıya meyllidir”.

**Ekspertin sözlərinə görə, bəzi ərəblər isə Azərbaycana biznes məqsədi ilə yanaşırlar:** “Onlar da adət-ənənələrin yaxın olmasından dolayı üstünlük verirlər. Həm də Azərbaycanı bir çox ölkələrlə, o cümlədən ərəb ölkələri ilə viza rejimi sadələşib. Bu özü də turizm prosesinə təkan verən amillərdən hesab olunur. Ərəblərin Bakını sevməsinin digər səbəbinə gəlincə, istənilən ölkədə yerli media nümayəndəsi turistə yaxınlaşırsa, turist ona müsbət cavab verməyə bilməz. Turist ölkədə qonaqdır, o mənfi söz demək istəməz. Xüsusən Azərbaycan kimi ifadə azadlığı nisbətən məhdud olan ölkədə turistlər də mümkün qədər qonaq olduğu hər yerdə yaxşı sözlər deməyə çalışırlar, öz yerlərini daha isti etmək istəyirlər. Lakin bu, o demək deyil ki, Azərbaycana gələn ərəblər ölkəmizdə hər şeyi bəyənirlər. Burada bir amil də var ki, istirahət məqsədilə hansısa şəhərə getmək orada yaşamaqdan fərqlidir. Onlar burada dincəlməyə gəliblər, qayda-qanun baxımından burada rahat nəfəs alırlar”.

R. Həsənovun fikrincə, bizim insanlarımızın gündəlik qayğıları, problemləri daha çoxdur və onlar şəhərin imkanlarından istifadə edə bilmirlər, gözəlliklərindən zövq ala bilmirlər: “Bakı bu günə qədər dünyanın ən bahalı şəhərlərindən hesab olunur. Lakin gəlir baxımından Bakı əhalisi digər ölkələrlə müqayisə oluna bilməz. Bu mənada paytaxt əhalisində sosial gərginliyin olması təbiidir. Lakin bu, o demək deyil ki, insanlar şəhəri sevmir. Sadəcə, əhali qısamüddətli dövrdə sürətli təbəqələşmənin nəticələrini hələ də həzm edə bilmir. Təbəqələşmə o qədər güclüdür ki, imkansız insanlar arasında psixoloji sarsıntı yaşanmaqdadır”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 170 (6491) 5 avqust 2016




Cümə söhbətləri

# İnsanı paklayan rəhmət bulağı

**Bismillahir-Rahmənir-Rahim! Mübarək dinimizdə hər şeydən daha çox təkid olunan məsələlərdən biri insanın istiğfar diləməsi, tövbə etməsidir. Tövbə etmək - insanın özünəqayıdışı, özünü tapmasıdır.**

Bizlər hər gün ki, Allahın hüzurunda olmağımızın fərqində olmuruq, bundan qəflət edirik - mühüm şeyləri itirmiş oluruq. Bu anların hər birinə görə peşman olacağıq. Bu peşmançılığı Qiyamətdə yaşamamaq üçün insana dünyada tövsiyə olunan ən gözəl əməl tövbədir. Tövbə - insanın qəflətdən çıxması üçün ən gözəl vasitədir. Çünki insan tövbə edərkən ayılmış olur, özünü Allahın hüzurunda hiss etmiş olur.

## Tövbənin müqəddiməsini nələr təşkil edir?

Həqiqi tövbənin, istiğfarın baş tutması üçün bir neçə məsələ baş verməlidir. Necə gəldi yox, sözgəlişi yox, zahirdə yox, gerçək bir tövbə durumunun meydana gəlməsi üçün bir neçə məsələ olmalıdır. Bunlar olandan sonra tövbə tofiqatı baş tutar.

Bunlardan biri odur ki, insan Allahın hüzurunda olmasını başa düşməlidir. İnsan başa düşməlidir ki, bu dünyada müvəqqətidir, imtahan dünyasındadır. İnsan fərqində olmalıdır ki, Qiyamət günü bunların hesab-kitabı olacaq. Anlamalıdır ki, yanlışlar edir, səhvlər, xətalar edir, büdrəmələri olur. Bunun fərqində olmalıdır ki, şeytan (lən) vəsvəsə edir və onun başı bu dünyanın zahiri rəngarəngliklərinə qarışır və insan üçün ən mühüm məsələ olan özünü tapması, özünü dərk etməsi kənarda qalır. Bunlar tövbənin müqəddimələridir.

İnsanın peşman olması, etiraf etməsi üçün bu gerçəkliklərin fərqində olmalıdır. Qəflət ilə bunlar bir yerdə olmur. Adam qəflətdə olsa, peşman olmaz. Qəflətdə olmaq peşman olmağın, yanlışı, səhvi, xətanı etiraf etməni mümkün etmir. Bir adam əgər qəflətdədirsə, heç öz durumunun fərqində deyil. Ona görə də tövbənin praktik əhəmiyyəti bundan ibarətdir ki, insan daim Allahı zikr etsin və eyni zamanda da öz durumuna diqqət etsin. İnsan gərək gerçəkdən peşman olsun və Allahdan qayıdış istəsin. Bunun bünövrəsində isə insanın öz durumundan narazı olması durur. Adam öz halından razı olsa, heç bir zaman tövbə durumuna yiyələnə bilməz. Hər kəs öz halına nəzər salmalıdır. Əgər öz halından razıdırsa, qəflətin özünü yaşayır. Qəflətdə olmamağın ciddi əlamətlərindən biri budur ki, adam öz halından, durumundan, vəziyyətindən narahat olsun. Başa düşməlidir ki, Allah onu bəndə olması üçün yaradıb, amma o, yetərincə həmin yaradılışın hədəfinə uyğun yaşamır. Adam özündən narazı olsa, səhvlərini, xətalarını, çatışmazlıqlarını görər, nələrdən çəkinməlidir və çəkinmirsə, onların fərqinə varar. Belə olan insanın halı dəyişər.



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Əgər insan öz acizliyini hiss etsə, fərqinə varsa ki, bu durumu ilə məhvə tərəf gedir, bu zaman ayılar. Bunlar hamısı diqqət, təvəccö istəyir, fərqinə varmaq istəyir. Deməli, burada diqqətin də böyük rolu var. İnsan öz kimliyinə, harada olmasına, hara getdiyinə diqqət etməlidir. Bu halda insanın etiraf etmək, peşman olmaq, özünə tənqidi yanaşmaq ruhiyyəsi meydana çıxar. Bu halda insan özünü düzəltmək istəyər. Bu halda adam Allaha bağlanmaq, Allaha sığınmaq istəyər, Rəbbinin qapısını döyər və istiğfar edər, qayıdış istəyər.

## Tövbə edənin dörd xüsusiyyəti

**Həzrət Rəsulallah (s) buyurur: "Tövbə etmiş şəxsin dörd əlaməti var: əməli yalnız Allaha görə xalisləşdirmək; batili tərk etmək; haqqa bağlılıq; yaxşılığa hərislik".** Bizim toplumumuzda tövbəkarla, tövbə edənlə bağlı yanlış stereotiplər var. Cəmiyyətdə bəzən elə düşünülür ki, tövbə, yalnız böyük bir günah etmiş şəxsin o işi bir daha görməyəcəyinə dair söz verməsidir, onu tərk etməsidir. Belə yanaşma tövbə anlayışını çox kiçiltmək, məhdudlaşdırmaqdır.

Əslində isə tövbə - bir insanın hər gün təkamülə doğru can atmasıdır. Tövbə - insanın hər gün tənəzzüldən qurtulub, yüksəlişə can atmasıdır. Tövbə - hər an ki, insan Allahdan qəflət edir, bundan peşman olması, bunu etiraf etməsi və özünə qayıtmaq cəhdidir.

## Əməli Allah üçün xalisləşdirmək gərəkdir

Əziz Rəsulallah (s) tövbənin əlamətlərini bizlərə çatdırır. Birinci əlaməti - əməli yalnız Allaha görə xalisləşdirməkdir. Çünki sən əgər əxlaq müəllimin üçün etsən, bir gün müəllimin sənin üçün önəmli olmaya bilər, deməli, sənin əməlin yenə xalis olmayacaq. Bəzən insanlara görə edəcəksən, insanlar heç başa düşməyəcək, dərk etməyəcək. Gərək insan əməlini yalnız Allaha görə xalisləşdirsin. Əməli xalisləşdirmək budur ki, insan istisnasız bütün əməllərini Allaha xatir görsün.

Tövbəkarın ikinci xüsusiyyəti budur ki, batili tərk edər. Tövbəkar artıq qurtulmaq istəyir. İstəyir ki, batildən uzaq olsun, sərhədlərdə olmasın. Tövbəkar nəinki haram olan, hətta haramla sərhəddə olan yerlərdə də olmaq istəmir. Boş məsələlərdən, dedi-qodulardan, mənasız məşğuliyyətlərdən, qəflətə aparan hər şeydən, batil adına olan hər məsələdən uzaq olmaq istəyir. Tövbəkar hər nə ki, şübhəlidir, qarışığı var, aqibəti üçün faydalılığına tərəddüdü var - onu tərk edər. Tövbəkar hər məsələdən agahdır, səhvlərinin fərqindədir, artıq büdrəmək istəmir.

Həqiqi tövbə edənin digər ciddi bir xüsusiyyəti - Haqqa bağlılıqdır. Tövbə edənin Rəbbinə bağlılığı var. Ruhən həqiqət axtarışındadır, həqiqəti və haqqı dərk edir, ona tərəf hərəkətdədir. Bunu həyatının bütün müstəvilərində tətbiq edir.

## Tövbəkar yaxşılıqlara can atar

Tövbəkarın sonuncu mühüm xüsusiyyəti yaxşılığa hərislikdir. Bir yaxşı iş görəndə, onu görmək üçün əziyyət çəkəcəyini düşünmür, yaxşı iş görərkən minnət qoymur, gözləmir ki, digərləri də edər. Bu insan yaxşılığın hərisidir, çünki tövbəkardır, Allahdan bağışlanmaq istəyir. Tövbə edən, Allaha qayıdışı üçün qarşısına çıxan bütün yaxşılıq fürsətlərini vasitə bilir, dəyərləndirir, onlara qənimət kimi baxır. Bizim ən böyük problemimiz odur ki, bizlər imana, dinə gəlirik, bir müddətdən sonra imanlılıq, inanclılıq ruhiyyəsi zəifləyir. Sonra Allah insana o qədər gözəl işləri inayət edir ki, onları etsin, amma, təəssüf ki, o halı, ruhiyyəsi olmur. Tövbəkar bir insan bunlara diqqət etməlidir.

## Günahlardan istiğfar insanı ətirləndirər

**Həzrət Əmirəlmömininin (ə) buyurur: "Günahlarının bağışlanmasını diləməklə özünüzü ətirləndirin ki, günahların iyi sizi rüsvay etməsin".** Biz fərqində olmalıyıq ki, Allah hüzurunda edilən hər bir günahın mənfi təsiri var. Həm daxilimizə, həm varlıq aləmində ətrafımıza günahlarımız mənfi təsirlər qoyur. İnsan necə ki, özünün zahiri, fiziki təmizliyinə riayət edir, zahiri və fiziki bulaşıqlarının həmişə narahatlıqlarını yaşayır və onları aradan aparmaq istəyir, o cümlədən də insan özünün mənəvi paklığına, təharətinə də diqqət etməlidir. Həzrət Əli (ə) bunun ən uğurlu, ən gözəl yolunu bizlərə tövbə, istiğfar etmək kimi bir mübarək yolla tövsiyə edir. Bu anlamda tövbə etmək insan üçün böyük bir nemətdir. Elə bir nemətdir ki, insanı paklayar.

## Bəs Həzrət Rəsulallah (s) nə üçün tövbə edir?

**Həzrət Rəsulallah (s) hədislərin birində buyurur: "Bəzən qəlbimi qübar bürüyür və mən bir gündə yetmiş dəfə Allah dərgahında bağışlanmağımı diləyirəm".** Bunu varlıq aləminin ən alisi, ən üstünü, ən əşrəfi, ən gözəli, ən pakı bizlərə çatdırır. Peyğəmbərimiz (s) insanların ən kamilidir və o, Həzrətin (s) bütün varlığı Allaha bağlantıdadır. Onun tövbəsi - özünü Allah dərgahında kiçik bilməyin, təvazönün nümayişidir. Bu, həm də mərifət, tanıma, agahlıq nümayişidir. İnsanın mərifəti nə qədər yuxarı olsa, özünün Allah dərgahında nə qədər aciz olduğunu bir o qədər dərk edər.

Bu yanaşma nə qədər yanlış məntiqləri puç edir. Bəzən insan düşünür ki, "Mən nə etmişəm ki, tövbə edim?" Bu, insanların cahilliklərinin əlamətidir, mərifətlərinin az olmasının göstəricisidir. İnsan Allahı tanısa, özünü Allah hüzurunda hiss etsə, başa düşər hər an ki, Allah dərgahından bəhrələnməyib, hətta az bəhrələnib - o anın özünün tövbəsini, bağışlanmasını istəyər.

İnsanın qəlbinin tövbəyə uyğun olmaması, bərkiməsi, kəsavət bağlaması insan üçün böyük bir faciədir. Təbii ki, bizim Rəsulallahın (s) bu buyuruşu ilə müqayisə olunmalı durumumuz yoxdur. Amma buradan hər birimiz öz səviyyəmizə görə bir nümunə götürə bilərik ki, tövbə qəlblərin müalicəsi, aramlığıdır.

## Tövbə edənin çətinlikləri aradan gedər

**Əziz Peyğəmbərimiz (s) buyurur: "Hər kim çox əfv dilərsə, Allah onun hər qəmi üçün bir fərəc, çətinliyi üçün bir çıxış yolu qoyar".** Bəşəriyyət depressiyada, melanxolik durumların içərisində batıb gedir. Səbəbi isə Allahla bağlantısının olmamasıdır. İnsanın Allahla bağlantısı olsa, özünü Allahın bəndəsi olaraq hiss etsə, özünü Allahın hüzurunda hiss etsə, bilsə ki, onu bir yaradan var və ona hər an varlıq verir, hər an inayəti var, bir gün Ona tərəf qayıdacaq - halı tamamilə dəyişər. Bunu bilən insanda tövbə halı, əfv diləmək halı olar. Tövbə edən kəsin qəmləri - fərəclə, çətinlikləri - rahatlıqla, çıxış yolları ilə əvəzlənər.

## Tövbəyə çatmaq üçün nə edək?

Tövbəmizi xalisləşdirmək üçün gərək hər bir anımızda Allahın razılığını düşünək. Gərək ilk növbədə dilimizə nəzarət edək. Əksər müsibətlər insanın dilinin ucbatından hasil olur. Nələrdə ki, bilirik Allahın razılığı var, onları danışmalı, nələrdə ki, Allahın razılığının olmadığını bilir və ya razılığının olub-olmadığına dair tərəddüdümüz var - onları danışmamalıyıq. Biz əlimizə keçəni yemirik, çalışırıq ki, yediyimiz şeylər keyfiyyətli olsun. Eləcə də ruhumuzun, qəlbimizin qidasının keyfiyyətinə diqqət edək. Qəlbimizi nə ilə qidalandırsaq - yekunda onu da hasil edəcək. Qəlbimizi elə qidalandırmalıyıq ki, ondan tövbə etmək halı hasil olsun.

İnsan gözünü nəzarətə almalıdır. İnsan gərək gözünü, bu yolla da qəlbini, ruhunu qorusun. Həqiqi tövbə edən insan bağışlanmış, yeni doğulmuş, günahlardan paklanmış bir uşaq kimi olar. Gərək özünü bulaşdırmasın.

**Allahım, bizlərə gerçək tövbə ruhiyyəsinə yiyələnmək tofiqatını nəsib et!**

**Allahım, qəlbimizi, ruhumuzu hər zaman Sənə bəndə olmaq halında qərar ver!**

**Allahım, bizləri günahlardan amanda saxla! Amin!**

YENİ MÜSAVAT
N 170 (6491) 5 avqust 2016

**Fayton ən qədim nəqliyyat növlərindən biri olub. Bəylər, xanlar məhz bu faytonlarla gedib-gəlirmiş. XIX əsrin sonlarında Bakıda 418 fayton qeyd alınıbmış. O vaxtlar Bakı dəmir yolu vağzalının qarşısındakı meydanda sərnişinləri daşımaq üçün faytonlar növbəyə dururmuş. Hətta həmin dövrdə faytonlarda gediş haqqını göstərən xüsusi qiymət cədvəli də olub...**

# Bakıda faytonla gəlin getmək istəyənlərin sayı artıb

## Bu qədim nəqliyyat növü paytaxtda təkcə əylənmək üçün istifadə olunmur

İndi də paytaxtda faytona rast gəlinir. Amma onlar əvvəlki kimi nəqliyyat növü funksiyasını daşımır. Sadəcə olaraq, insanları əyləndirmək üçündür. Nostalgiya ilə müasirliyi özündə birləşdirən bu cür faytona Dənizkənarı Milli Parkın yaxınlığında rast gəldik. Üzəri parıltılı olan tünd şabalıdı at, ona qoşulan ağ fayton insanı heyran edirdi. Faytonun sahibinə yaxınlaşıb, söhbətləşdik. Ondan əvvəllər alınan müsahibələrdə dediklərindən əlavə uydurmalar yazıldığını deyən və buna görə giley-güzar edən gənc faytonçu müsahibə verməkdə tərəddüd etsə də, sonda razılaşdı.

**Faytonla gəzinti 10 manat, gəlin aparmaq isə 100-200 manat...**

**13 ildir ki, faytonçuluqla məşğul olduğunu və çörəyinin bu faytondan çıxdığını deyən Zamir Allahyarov hər iş kimi faytonçuluğun da çətin olduğunu dedi:** “Bu, adi kənd atıdır. Sabirabaddan almışam. 13 ildir ki, faytonçuyam. Atı Bayılda həyət evimiz var, orada saxlayırıq. Ata qida olaraq arpa, yonca, bayramdan-bayrama isə kişmiş veririk. Atın nalını 15 gündən bir dəyişirik. Faytona maraq göstərənlər arasında yerli camaatla yanaşı, turistlər də var. Maraq böyükdür. Faytonla 15 dəqiqəlik gəzinti 10 manatdır. Faytonla gəlin aparmaq istəyənlər də olur. Bu faytonla çox gəlin aparmışam. Hətta rayonlardan belə sifariş edirlər. Sonuncu dəfə iyulun 23-də Bakıda gəlin aparmışam. Faytonda getmək bəy-gəlinin yox, valideynlərinin arzusu idi. Ona görə də valideyn bizə yaxınlaşıb nömrəmizi istəmişdi. Beləcə, biz bəylə faytonla gedib, gəlini evlərindən götürüb şadlıq sarayına apardıq. Faytona marağı olan, köhnə adət-ənənəni qoruyub saxlayan insanlar çoxdur. Bu faytonla nəinki Bakıda və Bakı kəndlərində, Sumqayıta, Şəkiyə, Göyçaya, Sabirabada, Gəncəyə də gəlin aparmaq üçün sifarişlə getmişəm. Mənim bir tərəfim sabirabadlıdır. Məsələn, Sabirabada ay ərzində 2-3 dəfə gəlin aparmaq üçün sifarişə gedirəm. Faytonu gəlin maşınlarından da göz oxşayan bir vəziyyətə salıram; güllərlə, lentlərlə bəzəyirik. Faytonun bəzəyinə 40-45 manat çıxır. Biz sifarişlə 100 manata, uzaq yol olanda 150-200 manata da gedirik. Yəni qiymət məsafəyə görə dəyişir. Bu puldan bizə 60 manat qalır, ya yox. Bəzən rayondan qayıtdıqdan sonra 2 gün işə çıxa bilmirəm. Mənim ailəmin çörək pulu da bu atdan çıxır. Ona görə də qiyməti elə deyirəm ki, bu iki gündə mənim çörək pulum olsun. Uzaq rayona gedəndə atı kuzovlu maşınla, faytonu isə evakuatorla aparırıq. Onların xərcini mən vermirəm. Kim sifariş edirsə, pulu da o ödəyir. Bəzən insanlar atı aparıb özü bəzətdirir. Baxıram ki, mən bəzətdirdiyimdən pis olur və xərci də iki qat çıxır. 13 ildir işlədiyim üçün sizin üçün 50 manatlıq olan bəzəyi mənə 25 manata edirlər. Mən atasız və kasıb böyümüşəm. Ona görə də insanların maddi vəziyyətini başa düşürəm. İstəmirəm kiminsə arzusu ürəyində qalsın. Hətta təmənnasız da apardığım insanlar olub. İnsanın üzünə baxanda onun maddi vəziyyətinin hansı səviyyədə olduğunu müəyyən edə bilirəm. Ona görə də güzəştlər edirəm”.









**“Atı İngiltərə istehsalı olan şampunla çimizdirirəm, heç özüm elə şampunla çimməmişəm”...**

**Faytonçu Zamir at saxlamağın hər adamın işi olmadığını, bunun üçün xüsusi həssaslıq lazım olduğunu deyir:** “Fayton, at saxlamaq hər adamın işi deyil. Gərək atın hər bir qulluğunda durasan. Atımı İngiltərədən gətirilən və zoomağazalarda satılan şampunlarla çimizdirirəm. Heç özüm elə şampunlarla çimməmişəm (gülür-red.) Müştərilər həmişə deyir ki, atdan heç iy gəlmir. Yəni biz atı təmiz saxlayırıq. Çörəyim atdan çıxırsa, onun əziyyətini çəkməliyəm. Əziyyətsiz çörək yoxdur. Bu mənim sevdiyim işdir. Gedib kiminsə əlinin altında işləyə bilmirəm. Öz işimin həm ağasıyam, həm nökəriyəm. Şəhərdə konkret bir yerdə dayanmıram. Bakıda hər yerdə dolaşıram. Bu atımın 10 yaşı var, 2 ildir ki, məndədir. Bu, sayca mənim 23-cü atımdır. Ümumiyyətlə, atlar 16-17 yaşına kimi yaşayır. Fayton isə 8 ildir məndədir. Bir şeyə tələbat az olanda onun qiyməti baha olur. Məsələn, faytonun təkərləri sırf qədimi olduğu üçün çox bahadır”.

**“Sakit yerdə atın üzərinə maşın da sürürük, siqnal da veririk”**

**Gənc faytonçu bu işin fəsillə əlaqəli iş olduğunu dedi. 6 ay işləyib, 6 ay işləmədiyini deyən Z.Allahyarov qışda faytona maraq göstərənlərin demək olar ki, olmadığını bildirdi:** “Sentyabrın 15-dən sonra bizim işimiz sıfıra düşür. Mart ayından etibarən isə mövsüm başlayır. Bir var həftədə bir dəfə istirahət edəsən, məsələn, yayda elə olur. Bir də var ki, həftədə bir gün çıxasan, 5 gün istirahət edəsən. Qışda şənbə-bazar günü işləyirik, digər günləri istirahət edirik. Çünki iş olmur. Biz atı alanda onu sakit yerə aparıb üstünə maşın da sürürük, siqnal da veririk. Heyvanın qorxduğu hər şeyi göstəririk görək ki, necə reaksiya verir. Bu atda artıq heç bir reaksiya yoxdur. Biz bunları ona görə edirik ki, paytaxtda maşın görəndə, səs-küy olanda at qorxmasın. Sanki həm də dincəlirəm bu işimlə. Mən evdən çıxanda elə bil işləməyə yox, istirahət etməyə gəlirəm. Faytona kefsiz minən insanın üzü gülməyə bilməz. Faytona minən insanlar pozitiv enerji alır. Ən böyük arzum odur ki, şəhərdəki bu maşınları faytonlar əvəz etsin. Amma bilirəm ki, bu arzum heç vaxt yerinə yetməyəcək”.

**13 ildə bütün atlarına “Mişa” adı verdiyini deyən faytonçu bu atı yiyəsindən alandan adının “Mişa” olduğunu və onu çağıranda başa düşdüyünü dedi:** “Mişa işıqforu da bilir. Qırmızı işıq yananda özü dayanır. "Mişa" yeganə atdır ki, gülür. Onun nə istədiyini hiss edirəm. İnsan bir atı davamlı şəkildə idarə edirsə, o atın belinə minəndə insanın ürəyi ilə atın ürəyi eyni döyünür. Mən bu ata heyvan kimi baxmıram. Ona yoldaş kimi baxıram. Atı saxladığım yerlə evimin arası 2 kilometr olar. Bir gün atı yoxlamaq məqsədilə özümü atın belində ölülüyə qoydum. At məni düz həyətimizə apardı. At bir dəfə getdiyi yolu tanıyır".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**



# Döyülüb öldürülən 6 yaşlı qızın anası tutuldu

**Xırdalanda 6 yaşlı qızın öldürülməsi hadisəsinə görə daha bir nəfər saxlanılıb. “Report” xəbər verir ki, Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 30-da 6 yaşlı Ramilə Abdulxalıqovanın döyülərək öldürülməsində təqsirli bilinən anası, Ağsu rayon sakini Samirə Yarıyeva da tutulub.**

Araşdırmalar davam etdirilir. Qeyd edək ki, üç gün əvəl Daxili İşlər Nazirliyi (DİN) Xırdalanda 6 yaşlı qızın öldürülməsi hadisəsi ilə bağlı rəsmi məlumat yayıb.

Məlumatda bildirilib ki, iyulun 29-da Xırdalan şəhərindəki evlərdən birində kirayədə yaşayan Ağsu rayon sakini Samirə Yarıyeva DİN-in “102 Zəng Mərkəzi”nə zəng edərək şəhər ərazisində qızı, 6 yaşlı Ramilənin müəyyən edilməmiş avtomobillə vurulması və onun ölməsi barədə məlumat verib. Meyitin müayinəsi zamanı uşağın avtomobillə vurulması deyil, onun zorakılıq əlamətləri nəticəsində öldürülməsi müəyyən edilib.

Faktla əlaqədar cinayət işi başlanıb.

Abşeron Rayon Polis İdarəsi (RPİ) əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində uşağı döyərək öldürməkdə şübhəli bilinən Xırdalan şəhər sakini, əvvəllər məhkum olunmuş Elnar Hacıyev tutulub.

YENİ MÜSAVAT

Son səhifə

N 170 (6491) 5 avqust 2016

# Varlanmaq üçün brilyant uddu, brilyant saxta çıxdı

**1,5 karatlıq brilyant udan çinli turist biabır olub. Rusiya mətbuatının yazdığına görə, Çou Van adlı turist zərgərlik məhsulları sərgisində brilyantı götürərək udub. Turistin mədəsindən çıxan brilyantın saxta olduğu anlaşılıb.**



Polis onunla birgə sərgiyə gəlmiş digər çinli turist barəsində də axtarış verib. Onların hər ikisini 13 min dollarlıq brilyant daşın oğurlanmasında ittiham edirlər. Xatırladaq ki, insident Şri-Lankadakı "Facets Sri-Lanka-2012" sərgisində baş verib. Sərgi iştirakçılarından biri Suresh Wijekoon görüb ki, iki şübhəli çinli turist özünü qəribə aparır. Onlar stenddəki almaza diqqətlə baxırmış. Hətta ona elə gəlib ki, çinlilər o almazı dəyişmək də istəyiblər.



## Ağlayan uşağı sakitləşdirmək olmaz - alimlər təsdiqlədi

**Avstraliyada valideynlərin ağlayan uşaqlarına necə münasibət göstərməsi ilə bağlı bir araşdırma aparılıb. Alimlər valideynlərə tövsiyə edib ki, uşaqlar ağlamağa başlayandan yalnız bir müddət sonra onları sakitləşdirmək üçün hərəkətə keçsinlər.**

7 aydan 6 yaşa qədər olan 326 uşaq üzərində aparılmış araşdırmanın nəticələrinə görə, ata-analar ağlayan uşaqlarını nə qədər gec susdursalar, bir o qədər uğurlu nəticələr əldə edərlər. Bunun adına "nəzarətli ağlama" deyilir. Belə ki, valideynlər uşaq ağlayandan sonra gözləmə müddətini hər dəfə artırır və onlar öz-özünə sakitləşmə vərdişi qazanırlar.

Araşdırmanın rəhbəri Anna Price deyib: "Ata-analar uşaq ağlamağa başlayandan sonra bir gecə 2 dəqiqə, növbəti gecə 5 dəqiqə müdaxilə etmədən gözləməyi öyrənsinlər. Bu, uşağa ziyan deyil. Amma valideynlər uşaq ağlayan kimi onun otağının qapısını bağlayıb onunla maraqlanmırmış kimi hərəkət etməsinlər. Hərdən otaqlarına gedib nə etdiyi ilə maraqlansınlar. Bu halda uşaq da, ana da sağlam bir gecə keçirəcək".

# İnsan güləndə bunlar baş verir

**Gülüş immuniteti möhkəmləndirir, bizi streslərdən qoruyur və qanda xoşbəxtlik hormonu olan endorfinin miqdarını artırır. Elm sübut edib ki, biz hər dəfə gülərkən orqanizmdə qocalma prosesləri ləngiyir. Nə qədər ucadan gülürüksə, orqanizm bir o qədər aktiv şəkildə antitellər hasil edərək müxtəlif infeksiyalara qarşı daha davamlı olur. Səbəbli və səbəbsiz gülüş min bir dərdin dərmanıdır.**

Bunun ən azı 6 əsas izahı var:

Gülüş zamanı immunitet möhkəmlənir, ürək-damar sisteminin vəziyyəti yaxşılaşır, hipertoniklərin təzyiqi normallaşır.

Gülüş qarın əzələlərini yığılmağa və boşalmağa vadar edir ki, bu da mədə və bağırsağın işini normallaşdıraraq orqanizmdən şlaklar, toksinlər və xolesterinin daha tez xaric edilməsinə imkan yaradır.

Hər təbəssüm ürək və baş beyinin qan təchizatını canlandırır, ağciyərlərin ventilyasiyasını yaxşılaşdırır, üz dərisinin daha yaxşı nəfəs almasına kömək edir. Nəticə - görünüşünüz heyranedicidir.

Gülən zaman xüsusən də uzun müddət kompüter monitoru qarşısında oturan insanın kürək və boyun əzələləri boşalır.

Gülüş kədəri unutmağa kömək edir, depressiyadan xilas edir, yalnız ruhun yox, fiziki formanın da normal qalmasına imkan yaradır.

Çox gülən insanlar allergiya və ya digər dəri səpkilərinə daha az məruz qalırlar.





## Bu, bir rekorddur - 30 saniyəyə bir məkanı soyurlar

**Türkiyənin Konya şəhərində 30 saniyə ərzində oğurluq edən dəstə yaxalanıb. İçində biri qadın olmaqla, 16 nəfərlik üzvü olan dəstənin bu sürəti isə hətta polisi də heyrətə salıb. Məlum olub ki, qrup üzvləri əsasən mağaza və ofislərə basqın ediblər.**

Bu qeyri-adi sürətin arxasında dayanan detal isə qrup üzvlərinin günorta saatlarında həmin yerlərə gedib partizan üsulu ilə müşahidə aparmasıdır. Həmin vaxtı oğrular məkanın fotosunu gizli şəkildə çəkməyə sərf ediblər. Daha sonra qarət planı quran qrup bunun sayəsində son 4 ayda 40 uğurlu qarət gerçəkləşdirib. Xatırladaq ki, məkanın fotolarını əsasən qrupun azyaşlı üzvləri çəkirmiş.

## Qoroskop




QOÇ - Sizə borclu olanlardan, eləcə də məvacib prosesində gecikən pullarınızı əldə etməyə çalışın. Əks təqdirdə, buna bir həftə nail ola bilməyəcəksiniz. Yerli-yersiz özünüzü tərifləməyin.

BUĞA - Əsas vaxtınızı münasibətlər zəminində qurun. Dostluq-yoldaşlıq istiqamətində, ələlxüsus da büdcə məsələlərində sevindirici anlarınız olacaq. Bu gün uzaq səfərə çıxmaq olmaz.

ƏKİZLƏR - Bu zaman kəsiyində hər hansı bir mübahisə və ya münaqişəyə həvəs göstərməyiniz yalnız zərərinizə olacaq. Belə bir mənzərə yaransa, müəyyən ünvanlara qonaq getməyə dəyər.

XƏRÇƏNG - Olduqca riskli gündür. Odur ki, istənilən addımı atmazdan qabaq mütləq mövcud reallığı nəzərə almalısınız. Nəticənin uğurlu olmasını istəyirsinizsə, təcrübəli adamlardan yararlanın.

ŞİR - Son vaxtlar işlə bağlı passivliyə mübtəla olmağınız sizi yormaqdadır. Bu gün də belə bir şey gözlənildiyindən vaxtınızı əyləncələrə həsr edin. Sevgidə kobudluğa yol verməyin.

QIZ - Çoxsaylı görüşlərdə iştirakınızdan xəbər verən Göy qübbəsi maraqlı təkliflər alacağınızı da bəyan edir. Yeni işlərə başlamaq və ya bu barədə fikir mübadiləsi aparmaq üçün yaxşı vaxtdır.

TƏRƏZİ - Astroloji göstəricilər həmkarlarınızla münasibətdə təmkinli olmağı tövsiyə edir. Bunu bacarsanız, ciddi probleminiz olmayacaq. Çimərliyə getmək, təbiət qoynunda dincəlmək sizə zövq verə bilər.

ƏQRƏB - Qarşınızda perspektivli və yorucu işlər durur. Ulduzlara inansaq, ötən bir həftədə yol verdiyiniz səhvləri düzəltmək imkanı qazanacaqsınız. Etibarsız adamlardan uzaq olun.

OXATAN - Kifayət qədər məhsuldar gündür. Emosionallığınızı soyuqqanlılıqla əvəz edə bilsəniz, bir çox sahələrdə uğurlarınız olacaq. Şəxsi işlərinizdə əsaslı dönüş də mümkündür.

OĞLAQ - Hər şeydən öncə sağlamlığınıza fikir verməlisiniz. Ağır fiziki işlərdən, hündürlüyə çıxmaqdan ehtiyatlanmalısınız. Qərar qəbul edərkən müsahib rəyini mütləq nəzərə alın.

SUTÖKƏN - Yeni əlaqələrə başlamaq, fəaliyyət zəminində dönüş yaratmaq üçün sərfəli tarixdir. Bu istiqamətdə xərcə düşməkdən qorxmayın. Çünki müdafiənizdə duran ulduzlar sizi qoruyacaq.

BALIQLAR - Sevinməyə dəyər. Çünki astroloji göstəricilər ötən 5 gündə yarımçıq qalan hansısa planınızın reallığa yaxın olacağını bildirir. Deməli, əzmkarlığınızı artırmaqla buna nail olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Valideyn laqeyddirsə, gələcəkdə infarkt keçirir



**Uşaq vaxtı diqqətdən kənarda qalan uşaqların gələcəkdə infarkt keçirmə riski böyükdür. ABŞ alimlərinin 286 nəfər üzərində apardığı araşdırmanın nəticələri sübut edir ki, bu cür uşaqlıq keçirmiş şəxslər infarkt riskinə digərləri ilə müqayisədə 3 dəfə artıq məruz qalırlar.**

Nəticələr şəkər xəstəliyi, idman, siqaret vərdişi, ürək və digər narahatçılıq faktorları da nəzərə alınmaqla hazırlanıb. Maraqlıdır ki, daha öncə aparılan bəzi araşdırmalar uşaqlara qarşı laqeydliyin gələcəkdə ruhi xəstəliklərə səbəb olduğunu üzə çıxarmışdı. Bundan başqa, daha çox hər ikisi işləyən valideynlərin uşaqlarında bu kimi hallar üzə çıxır. Alimlər müəyyənləşdirib ki, belə uşaqlar ata-anasından qayğı gözlədiyi halda bu istəklərinə adekvat cavab ala bilmirlər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750